Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

11-13 YANVAR 2020-ci il

№ 4 (4135)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# UKRAYNA-AZƏRBAYCAN-ERMƏNİSTAN ÜÇBUCAĞINDA GÜC NİSBƏTİ KARDİNAL ŞƏKİLDƏ AZƏRBAYCANIN XEYRİNƏ DƏYİŞDİ

səh. 5

Paşinyan bəzən dost dediyi Ukraynaya da xəyanət etdi - İrəvan-Simferopol reysi...

səh. 4

MM-də YAP-ın deputatları azalacaq(?)...

səh. 3

İranın "İraqda ABŞ-a ilk zərbələrinin yoxlama xarakterdə olması" iddiaları...

səh. 8

Manatı bahalaşdıra biləcək yeni təzyiqlər var...

səh. 6

Azərbaycan bərpa olunan enerji sektorunda yeni səhifə açır - ləğv olunmuş agentlik bərpa oluna bilərmi...

səh. 11

Yeni sığorta dələduzluğu - bəzi şirkətlər ipoteka mənzilləri də sığorta ödənişinə cəlb etmək istəyir...

səh. 12

AMEA-dan maraqlı təşəbbüs - dilimizi öyrənən əcnəbilər üçün tədris vəsaiti hazırlanır

səh. 14

Xırdalanda kanalizasiya sularının Ceyranbatan su anbarına axıdıldığı xəbəri yayıldı...

səh. 15




səh. 2

## Dünya Bankının «Ermənistan və Gürcüstan Azərbaycanı üstələyəcək» bəyanatının əsassızlığı...



Qarabağ problemi «Qarabağ klanı» ilə Nikol Paşinyan iqtidarı arasında bir-birini məhv etmək üsuluna çevrilir...

səh. 9

Tonoyanın aqressiv hücum bəyanatlarının guya əsaslı olduğunu sübut etməyə yönəlik mif...

səh. 4



AMEA-da Akif Əlizadənin keçmiş ev bölgüsü ədalətsiz sayılmağa başlayır

səh. 10

səh. 2

"Kriminal faktların siyasi şou mövzusuna çevrilməsi radikalların ənənəvi uğursuz taktikalarından biridir"



səh. 13

Akademiyanın institut direktorları da "islah olunmağa" başladı



səh. 11

Avropadan könüllü qayıdan azərbaycanlılar dalğası - prosesin kökləri...



səh. 12

Tikinti şirkətləri sadələşdirilmiş vergi ödəyiciliyindən çıxır - mənzillərin qiyməti məsələsi gündəmdə...



səh. 15

Faciəli yanğın Bakıdakı əcnəbi tələbələrin mənzil-məişət sferasında qlobal bir problemi gündəmə gətirdi...



Dünya Bankı (DB) 2020-ci ildə Azərbaycanda ÜDM-in 2,3% artacağını proqnozlaşdırır. Bankın saytlnda dərc olunan "Dünya iqtisadiyyatının perspektivləri: Yavaş artım, siyasi çağırışlar" icmalına əssaən, 2021-ci ildə Azərbaycanda ÜDM-in artımı 2,1% təşkil edəcək.




# Dünya Bankının "Ermənistan və Gürcüstan Azərbaycanı üstələyəcək" bəyanatının əsassızlığı...

***Fuad İbrahimov:** "Hesab edirəm ki, DB tərəfindən verilən bu proqnoz reallığa söykənmir"*

Ümumilikdə, DB ötən ilin oktyabr ayında etdiyi 2020-2022-ci illər üçün Azərbaycanda iqtisadi artım templəri üzrə proqnozlarını təsdiq edib. Eyni zamanda, DB-nin proqnozlarına əsasən, 2022-ci ildə Azərbaycanda ÜDM-in artımı 2,2%-ə yaxın təşkil edəcək. Beləliklə, 2020-2022-ci illərdə Azərbaycanda ÜDM-in orta illik artımı 2,2%-ə yaxın təşkil edəcək.

İcmalda qeyd edilir ki, Azərbaycan iqtisadiyyatının uzunmüddətli artımı özəl sektorun inkişafının sürətləndirilməsi məqsədilə islahatların davam etdirilməsi və maliyyə sektorunda zəifliyin aradan qaldırılmasından asılıdır: "Bundan əlavə, insan kapitalına sərmayələr, təhsilin keyfiyyətinin artırılması iqtisadi artım templərinə müsbət təsir göstərəcək".

DB-nin icmalında o da qeyd olunub ki, Azərbaycan, regionun digər neft hasil edən ölkələri kimi, (Rusiya, Qazaxıstan) qiymətlərin kəskin dəyişməsi və xammal bazarlarında qeyri-sabitliyə qarşı zəif qalır. Bu səbəbdən Cənubi Qafqazın digər ölkələri 2020-2022-ci illərdə iqtisadi artım templəri üzrə Azərbaycanı qabaqlayacaqlar. Xüsusilə bu dövrdə Gürcüstanda orta illik iqtisadi artım 4,4%, Ermənistanda 5,2% səviyyəsində olacaq. Bütün bu deyilənlərlə yanaşı, DB-nin Azərbaycanla bağlı proqnozu nə dərəcədə reallıdır?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, Dünya Bankının proqnozları heç də hər zaman özünü doğrultmur: "Müxtəlif iqtisadi metodologiyalar var. DB də bu metodologiyalardan istifadə edir. Ancaq bu o demək deyil ki, bunlar həmişə özünü doğruldur. Digər tərəfdən, ümumiyyətlə, Ermənistanı Azərbaycanla hər hansısa ölçü vahidi ilə yanbayan qoymaq doğru deyil. DB mütəxəssisləri hansısa metodologiya ilə avtomatik hesablama aparır və nəticələri elan edirlər. Ancaq çox vaxt reallıqda həmin hesablamalar gerçəkliklə uzlaşmır. Bu nöqteyi-nəzərdən düşünmürəm ki, Ermənistanla bağlı proqnozlar özünü doğrultsun. Çünki Ermənistanın həm iqtisadi, həm də digər potensial imkanları Azərbaycanla müqayisə oluna bilməz. O dərəcədə ölkələr arasında böyük fərq var. Azərbaycanın qiymətlərin kəskin dəyişməsi və xammal bazarlarında qeyri-sabitliyə qarşı zəif qalması ilə bağlı DB-nin irəli sürdüyü yanaşmaya gəldikdə isə, buna birmənalı yanaşmaq olmaz.

*"Çox vaxt reallıqda həmin hesablamalar gerçəkliklə uzlaşmır"*

Çünki bu yalnız fors-major hallarda baş verə bilər. İstənilən ölkə iqtisadiyyatında tənəzzül yaşana bilər. Ancaq perspektivdə bu məsələlərə baxıb təhlil apardıqda hesab edirəm ki, DB tərəfindən verilən bu proqnoz reallığa söykənmir. Nəzərə almaq lazımdır ki, Azərbaycanda real sektor inkişaf edir. Düzdür, hələlik qeyri-neft sektorunun iqtisadiyyatda çəkisi elə də böyük deyil, amma bu sahədə dayanıqlı inkişaf var. Ona görə də DB-nin məlum yanaşmasını qəbul etmirəm".

***Vidadi ORDAHALLI***



## Trampın İranla müharibədə səlahiyyətləri məhdudlaşdırıldı

**ABŞ Konqresinin Nümayəndələr Palatası İranla hərbi əməliyyatların aparılması ilə bağlı Prezident Donald Trampın səlahiyyətlərini azaldan qətnaməni qəbul edib.**

"Trend"in məlumatına görə, qətnamənin lehinə 224 deputat, əleyhinə isə 194 deputat səs verib.

Bununla belə, qəbul edilən qətnamə qanun xarakteri daşımır və Senat tərəfindən qəbul edilsə, prezidentə imzalanmaq üçün göndərilməyəcək.

Qətnamə yaxın müddətdə Konqresin yuxarı palatası olan Senatda müzakirəyə çıxarılacaq.

# Aydın Quliyev: "Kriminal faktların siyasi şou mövzusuna çevrilməsi radikalların ənənəvi uğursuz taktikalarından biridir"

**Radikal müxalifətin bir hissəsinin seçkiyə qatılması və digər hissəsinin seçkidən imtina etməsi fakt olsa da, bu düşərgə seçki proseslərinə münasibətdə mahiyyət etibarilə eyni məqsədlər güdür. Bunu "Trend"ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.**

Onun sözlərinə görə, radikallar seçkiqabağı mühitin standartlara cavab verməyini iddia edərək, buna müxtəlif qondarma əsaslar tapır, cəmiyyətin diqqətini əsas məsələdən yayındırmağa cəhd edirlər: "Müxtəlif təxribatçı ideyaların radikalların pərdəarxası məqsədlərinə xidmət etdiyi şübhəsizdir. Radikal təşkilat təmsilçiləri xalqın diqqətini özlərinin sosial bazasının olmamasından yayındırmaq istəyir, labüd seçki məğlubiyyətinin əsl səbəblərini gizlətməyə çalışır və beynəlxalq ikili standartlara söykənən dairələrin diqqətini neqativ meyarlarla Azərbaycana kökləmək istəyirlər.




Bu kontekstdə adi kriminal faktların siyasiləşdirilməsi və siyasi şou mövzusuna çevrilməsi radikalların ənənəvi uğursuz taktikalarından biridir. Ölkədə baş verən hər hansı bir kriminal fakt üzərindən cəmiyyətin hissləri ilə oynamaq uğursuz siyasi taktika olmaqla bərabər, eyni zamanda yolverilməz qeyri-etik üsul kimi nəzərdən keçirilməlidir. Bütün ölkələrdə kriminal hadisələr baş verdiyi halda, radikalların bunu Azərbaycanın siyasi prosesləri ilə əlaqələndirməsi xalqın gözündən yayınmır və heç bir effekt vermədən iflasa uğrayır. Ümumiyyətlə, kriminal faktların siyasiləşdirilməsi bir neçə məqsədə xidmət edən köhnəlmiş və uğur gətirməyən mübarizə üsuludur. Xüsusilə onu demək lazımdır ki, radikal kəsim bu yolla xalqı radikallaşdırmaq və özlərinin tam itirilmiş sosial bazasının heç olmasa kiçik bir hissəsini bərpa etmək məqsədi güdür. İllərlə aparılan uğursuz radikal mübarizə taktikasının artıq düzəlməz nəticələrə gətirib çıxardığını başa düşməmək radikalların növbəti iflas təzahürü kimi başa düşülməlidir".

**Baş redaktor əlavə edib ki, radikal partiyalar öz sosial dayaqlarını hakimiyyəti idarə etmək bacarığının olmaması və illərlə qisasçılıq siyasəti aparmaqla itiriblər: "Hazırda qeyri-siyasi üsulların seçilməsi və ictimai rəyə təsirsiz keçən təxribatçı ideyalar radikalların iflasının qarşısıalınmaz olduğunun bir daha təsdiq edir".**

# Siyavuş Novruzov: "Radikal müxalifət yol qəzalarına da siyasi rəng verməyə çalışır"

**Azərbaycanda fevralın 9-na təyin edilmiş növbədənkənar parlament seçkiləri öncəsi müxalifətin təxribat yaradan çıxışları, ölkədə baş verən kriminal hadisələri şouya çevirmək cəhdləri bir daha onların siyasi uğursuzluğunu göstərir.**

Bunu "Trend"ə Milli Məclisin deputatı Siyavuş Novruzov deyib.

O bildirib ki, ümumilikdə götürdükdə, dünyanın hər yerində cinayət hadisələri baş verir və buna qarşı müvafiq cəza tədbirləri görülür: "Əgər bir hadisə törədilirsə, birinci növbədə onun səbəbləri araşdırılır və bununla bağlı ölçü götürülür. Radikal müxalifət o qədər çarəsiz hala düşüb ki, artıq məişət zəminində olan hadisələri, hətta yol qəzalarını da ictimailəşdirir və bu hadisələrə siyasi rəng verməyə çalışır. Adi bir hadisə ilə bağlı sosial şəbəkələrdə, internet televiziyalarında müzakirələr açırlar, bu hadisələri də dövlətin "ayağına yazmağa" çalışırlar. Təbii ki, bu istiqamətdə onlara xaricdən göstərişlər verilib. Müxtəlif dövlətlərdən, beynəlxalq təşkilatlardan Azərbaycana müşahidəçilər gələcək, seçki prosesini izləyəcəklər. Radikal müxalifət isə bu ərəfədə seçki prosesinə kölgə salmaq üçün belə çirkin yollara əl atır".

S.Novruzov vurğulayıb ki, bunlar radikal müxalifətin çox uğursuz cəhdləridir: Onların məqsədi odur ki, nə olur-olsun, Azərbaycan haqqında pis bir fikir formalaşsın. Ancaq onlar nə qədər çalışsalar da məqsədlərinə nail ola bilməyəcəklər. Çünki xalq onların hansı məramə xidmət etdiyini yaxşı bilir və görür. Odur ki, radikal müxalifət xalqın etimadını tamamilə itirib və xarici qüvvələrin əlində alətə çevrilib".

# MM-də YAP-ın deputatları azalacaq(?)...

**Hakim Yeni Azərbaycan Partiyası (YAP) fevralın 9-da keçiriləcək parlament seçkilərində iştirak etmək üçün irəli sürdüyü namizədlərin sosial tərkibinin statistikasını açıqlayıb. Bununla bağlı məlumatları Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının (YAP) icra katibinin müavini Siyavuş Novruzov təqdim edib.**

O bildirib ki, YAP hər zaman gender bərabərliyi prinsiplərinə əməl edərək hakimiyyətin hər üç qolunda - qanunverici, icraedici və məhkəmə sistemlərində qadınların təmsil onunmasına xüsusi əhəmiyyət verib: "Bu dəfə də partiyamız ənənəsinə sadiq qalaraq 28 nəfər ictimai-siyasi cəhətdən fəal və öz sahəsində uğur qazanmış qadınlarımıza siyahısında yer verib.

Fevralın 9-da keçiriləcək parlament seçkilərində iştirak etmək üçün YAP-ın irəli sürdüyü namizədlərin sosial tərkibinin statistikası aşağıdakı kimidir:

Namizədin sayı: - 123 nəfər

Onlardan: qadın - 28 nəfər, kişi - 95 nəfər

Yaş qrupları üzrə: 18-35 yaş - 18 nəfər

36-45 yaş - 35 nəfər, 46-60 yaş - 40 nəfər

60-dan yuxarı - 30 nəfər

Fəaliyyət sahələri üzrə: Dövlət sektoru - 32 nəfər

Milli Məclisin deputatı - 45 nəfər

Bələdiyyə üzvləri - 6 nəfər

Səhiyyə üzrə - 6 nəfər

Təhsil üzrə - 22 nəfər

Özəl sektor - 10 nəfər

Müvəqqəti işsiz - 2 nəfər

Təhsil üzrə: ali - 123 nəfər

Elmi dərəcəlilər: elmlər namizədi - 22 nəfər, elmlər doktoru - 21 nəfər

YAP rayon (şəhər) təşkilat sədrləri: - 8 nəfər.

YAP-ın təqdim etdiyi siyahıda diqqətimizi seçkiyə yenidən qatılan deputatlarının sayı cəlb etdi. Göründüyü kimi, YAP bu seçkiyə 45 keçmiş millət vəkili ilə qatılıb. Bundan əvvəlki parlamentdə isə YAP 69 millət vəkili ilə təmsil olunurdu. Faktiki olaraq hakim partiya 25 millət vəkilini estafetdən kənarda saxlayıb. Belə ehtimallar var ki, hazırda təqdim olunan 45 nəfərdən heç də hamısı seçilməyəcək. Onda YAP-ın ümumi deputat siyahısında azalmanı təxmin etmək olarmı? Təqdim olunan hesabatdan görünür ki, YAP, demək olar ki, bütün seçki dairələrini əhatə etməyə




çalışıb, yalnız iki dairədən namizəd irəli sürməyib. Bu da onu deməyə əsas verir ki, hakim partiya yeni deputat korpusunun əhəmiyyətli hissəsini sürpriz namizədlərdən təşkil etməyi hədəfləyib. YAP-ın siyahısında qadınların sayında əhəmiyyətli artım müşahidə edilmir. Namizədlərin yaş qrupundan isə görünür ki, YAP bu dəfə cavanlaşmaya üstünlük verib. Dövlət qurumlarında çalışan namizədlərin sayı ağırlıq təşkil etmir. Siyahıda özəl sektoru təmsil edən iş adamlarının yer alması da yeni taktika deyil. Çünki bundan əvvəlki parlamentdə də belə kateqoriyadan olan YAP-çı millət vəkillərinə rast gəlinirdi. Hesabatda diqqətimiz çəkən məqamlardan biri də 2 nəfərin işsiz olmasıdır. Partiyanın irəli sürdüyü namizədlərin hamısının ali təhsilli olması da normal sayıla bilər. Çünki parlamentdə savadlı adamların təmsil olunması daha məqbuldur. Ən vacib məqamlardan biri isə budur ki, hakim partiya budəfəki seçkiyə daha çox elmi dərəcəli namizədlə gedir. Onların ümumi sayı 43 nəfərdir. Sonda bu nəticəyə gəlmək olar ki, hakim partiya yenə də özünü seçkinin favoriti sayır və yəqin ki, əvvəlki nəticəsindən daha üstün nəticə göstərməyə israrlı olacaq. Ancaq son nəticəni seçici deyəcək...

***Məhəmmədəli QƏRİBLİ***

# Bişkekdə Azərbaycan-Qırğızıstan Dostluq Parkının təməlqoyma mərasimi keçirildi, Prezident Sooronbay Jeenbekov törəndə iştirak etdi

**10 yanvar 2020-ci ildə Bişkek şəhərində Azərbaycan-Qırğızıstan Dostluq Parkının təməlqoyma mərasimi keçirilib.**



Qırğızıstan mətbuatı xəbər verir ki, təməlqoyma mərasində Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov, Azərbaycanın Qırğızıstandakı səfiri Hidayət Orucov, Qırğızıstanın Xarici İşlər naziri Çingiz Aydarbekov, Bişkek şəhərinin meri Əziz Surakmatov, Parlamentin deputatları, Bişkek şəhərinin Oktyabr rayonun icra başçısı Maksim Sitnikov, şəhər sakinləri və KİV nümayəndələri iştirak edib.

Prezident Sooronbay Jeenbekov və səfir Hidayət Orucov Azərbaycan-Qırğızıstan Dostluq Parkının və Heydər Əliyev adına məktəb binasının layihələri ilə tanış olduqdan sonra parkın təməlini qoyublar.

Mərasimi Bişkek şəhər meri Əziz Surakmatov açaraq Azərbaycan və Qırğızıstan dostluğunun simvolu olan parkın açılması münasibətilə mərasim iştirakçılarını təbrik edib.

Prezidenti Sooranbay Jeenbekov Bişkek şəhərində məktəb kompleksinin tikilməsinə, paytaxtın ən görkəmli rayonlarından birində möhtəşəm parkın salınmasına göstərdiyi köməyə və verdiyi böyük dəstəyə görə Azərbaycan Prezidenti İlham Əlyevə təşəkkürünü bildirib, qeyd edib ki, Azərbaycan-Qırğızıstan Dostluq Parkı iki dövlət arasında münasibətlərin nə qədər yüksək səviyyədə olduğunun göstəricisidir.

Azərbaycanla Qırğızıstan arasında dostluğun tarixi köklərə dayandığını bildirən Prezident qeyd edib ki, burada 20 mindən çox azərbaycanlının yaşaması da bu münasibətlərin daim yüksələn xətlə inkişafına zəmin yaradır.



Sonra səfir Hidayət Orucov Azərbaycan Prezidenti İlham Əliyevin müraciətini mərasim iştirakçılarına çatdırıb. Vurğulaıb ki, xalqlarımızı etnik və tarixi bağlar, ortaq mədəniyyət, adət-ənənələr və dil bağlayır. Ölkələrimiz arasında sıx və səmərəli əməkdaşlıq üçün geniş imkanlar mövcuddur.

**Gələcək nəsillərin bu əlamətdar hadisəni xatırlayacağına əminliyi ifadə edən səfir mərhum prezident Heydər Əliyevin "Manas" dastanının 1000 illiyinə həsr olunmuş təntənəli yığıncaqda çıxışından sitat gətirərək qeyd edib ki, "Manas" qırğız xalqının böyük mədəni və mənəvi sərvətidir, bütün dünya sivilizasiyasının, bəşəriyyətin dəyərli sərvətidir, türk dünyasının, türkdilli xalqların, İslam dünyasının böyük mənəvi sərvətidir.** "Manas" eyni zamanda Azərbaycan xalqına məxsusdur, Azərbaycan xalqının da mənəvi, mədəni sərvətidir"- o deyib.

**2019-cu ilin aprelində Ermənistanın müdafiə naziri David Tonoyan bildirdi ki, Ermənistan silahlı qüvvələri təmas xəttinin arxasında xaos yarada biləcək və yalnız B nöqtəsinə deyil, həm də C, D, E nöqtələrinə zərbə vura biləcək.**

# Tonoyanın aqressiv hücum bəyanatlarının guya əsaslı olduğunu sübut etməyə yönəlik mif...



## *Daşdəmir Əliyev: "Çünki dəyəri milyardlarla ölçülən qırıcıları almaq üçün ölkənin iqtisadi cəhətdən qüdrətli olması lazımdır"*

Bu yaxınlarda işğalçı ölkənin müdafiə naziri Tonoyan əsgərlərinə müraciət edib. Deyib ki, biz artıq "səngərdə müdafiə" taktikasından "düşmən torpağında əməliyyatlar" strategiyasına keçirik: "Biz Qarabağ məsələsində köhnə status və köhnə sərhədlər məsələsinə bir daha qayıtmayacağıq. Biz bundan sonra öz torpaqlarımızda vuruşmayacağıq...".

Bu, faktiki olaraq, işğalçı ölkənin qeyri-konstruktiv mövqedə olmasını göstərir və Ermənistanın aqressiv hücum niyyətində olduğunu ortaya qoyur. Ermənistan yeni "doktrinasını" hərəkətə keçirmək əzmində olduğunu əsaslandırmaq üçün öz mətbuatında maraqlı məlumatlat tirajlayır. İddia olunur ki, Ermənistan "Su-30SM" çoxfunksiyalı qırıcıların sayını artırmağı planlaşdırır. Qeyd edilir ki, indiyə qədər onlardan yalnız dördü var, ancaq Ermənistan Müdafiə Nazirliyi əmin edir ki, eskadrilya yaratmaq, yəni təyyarələrin sayını 12 ədəd artırmaq niyyətindədir. Qırıcı təyyarələrin daha çox hücum təyinatlı olmasını nəzərə alsaq, onda belə məlumatların tirajlanması Tonoyanın bəyanatları ətrafında mif yaratmaqdan başqa nəsə deyil.

Hərbi ekspert Daşdəmir Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistanın müharibə etmək əzmi yoxdur: "Onların hərbi əməliyyatların başlanmasından necə çəkindiklərini biz hiss edirik. Bu səbəbdən də yeni taktikaya keçiblər. Əslində, onların ortaya atdıqları yeni taktikanın hərbi müstəvidə tətbiqi mümkün deyil. Yəni Tonoyanın bəyanatları reallığa əsaslanmır. Onların Azərbaycana yeni hücumlar etmək əzmi və qüdrəti yoxdur. Bu səbəbdən də müharibəni ideoloji müstəviyə keçirmək istəyirlər. Bununla bağlı Tonoyanın bir neçə açıqlaması olub. İndi həmin açıqlamaların arxasını bərkitmək üçün bəzi dezinformasiyaları gündəmə buraxırlar. Ermənistanın iqtisadi vəziyyəti göz qabağındadır. Azərbaycanın hərbi büdcəsi az qalır Ermənistanın ümumi büdcəsinə bərabər olsun. İqtisadi aspekti vacib olduğuna görə qabardıram. Çünki dəyəri milyardlarla ölçülən qırıcıları almaq üçün ölkənin iqtisadi cəhətdən qüdrətli olması lazımdır.

Özü də burada söhbət bir yox, 12 qırıcıdan gedir. Ermənistan ərazisində müasir silahlar ola bilər. O da oradakı Rusiya hərbi bazasının nəzarətində saxlanır və ondan bizə qarşı hücum üçün istifadə olunması qeyri-mümkündür. Mən qırıcılarla bağlı yayılan xəbəri blef sayıram. Mən, əksinə, çoxlu sayda informasiyaya rast gəlmişəm ki, Ermənistan müdafiə təyinatlı silahları əldə etməkdə maraqlıdır. Belə hədələrlə bizi qorxuda bilməzlər. Azərbaycan Ordusu hər an düşmənin burnunu əzməyə hazırdır. Buna bizim ordunun həm psixoloji vəziyyəti, həm də qüdrəti tam imkan verir".

***Məhəmmədəli QƏRİBLİ***

**Bu ilin mart ayından Ukraynanın işğal edilmiş Krım (Simferopol) bölgəsi ilə İrəvan (Ermənistan) arasında müntəzəm təyyarə reyslərinin açılması planlaşdırılır. Bu barədə separatçı bölgənin "parlamentinin turizm, kurortlar və idman komitəsinin rəhbəri" Aleksey Çernyak bildirib.**

# Paşinyan bəzən dost dediyi Ukraynaya da xəyanət etdi - İrəvan-Simferopol reysi...



## *Arzuxan Əlizadə: "Bu o deməkdir ki, Ermənistan Ukraynanın ərazi bütövlüyünü tanımır"*

Çernyak deyib: "İkar Hava Yolları" Rusiya Federal Hava Nəqliyyatı Agentliyindən müntəzəm uçuşlar üçün müvafiq icazə və təsdiq alıb. Uçuşlar mart ayından həftədə iki dəfə planlaşdırılır".

Onun sözlərinə görə, Simferopol və İrəvan arasındakı hava yolu Krımın Rusiyaya "birləşməsindən" sonra ilk müntəzəm beynəlxalq reys olacaq. Separatçıların nümayəndəsi müntəzəm uçuşların açılmasının Krıma beynəlxalq uçuşların başlamasını və Simferopol hava limanının beynəlxalq statusunu daha da gücləndirəcəyini vurğulayıb.

Məlumat üçün qeyd edək ki, bir müddət əvvəl Ukrayna Xarici İşlər Nazirliyi Ermənistan vətəndaşlarının və rəsmi nümayəndələrinin Rusiya tərəfindən işğal edilmiş Krım bölgəsinə qanunsuz səfəri ilə bağlı rəsmi İrəvana xəbərdarlıq edib. Bundan başqa, XİN Ukrayna vətəndaşlarına müraciət edərək, Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsinə getməməyə çağırıb.

Paşinyan hakimiyyəti bu addımı ilə Ukraynanın ərazi bütövlüyünü pozur. Nəzərə almaq lazımdır ki, Qərb və bir sıra ölkələr, birmənalı olaraq, Krımı Ukraynanın tərkib hissəsi hesab edirlər. Paşinyan bəzən dost dediyi Ukraynaya da xəyanət etdi. O bu addımı ilə Qərbin də iradəsinə qarşı gedir.

*"Hesab edirəm ki, buna görə Qərbdən Paşinyan hakimiyyətinə münasibət mənfi mənada dəyişə bilər"*

Məsələyə münasibət bildirən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, Ermənistanın bu addımı, açıq-aşkar, Ukraynanın ərazi bütövlüyünə hörmətsizlikdir: "Nəzərə almaq lazımdır ki, Ermənistan bununla dünyada Krımla müntəzəm beynəlxalq reys təşkil edən ilk dövlət olacaq. İndiyə qədər heç bir ölkə Krımla bağlı belə addım atmağa cəsarət etməyib. Ancaq Krım-İrəvan təyyarə reysinin açılması o deməkdir ki, Ermənistan Krımı rəsmən Rusiya ərazisi hesab edir.

Bu o deməkdir ki, Ermənistan Ukraynanın ərazi bütövlüyünü tanımır. Zatən, beynəlxalq qurumlarda Ukraynanın ərazi bütövlüyü məsələsi müzakirə olunanda Ermənistan bundan yayınır. Birmənalı olaraq Ermənistan Ukraynanın ərazi bütövlüyünə dəstək vermir. Ancaq hesab edirəm ki, buna görə Qərbdən Paşinyan hakimiyyətinə münasibət mənfi mənada dəyişə bilər. Çünki bu, Qərbin maraqlarına ziddir".

***Vidadi ORDAHALLI***



# ABŞ bu dəfə "Hizbullah"ı vurdu

**ABŞ-ın rəhbərlik etdiyi beynəlxalq koalisiya qüvvələri Suriyanın şərqindəki Deyr-əz-Zor əyalətində "Hizbullah" hərəkatının mövqelərinə aviazərbələr endirib.**

"Trend"in məlumatına görə, zərbələr nəticəsində 4 tank məhv edilib.

İnsan itkiləri barədə məlumat verilməyib.

Qeyd olunur ki, zərbələrin hədəfi İranın İslam İnqilabı Keşikçiləri Korpusunun komandirlərinin rəhbərlik etdiyi "Hizbullah" qüvvələrinin mövqeləri olub.

# Ukrayna-Azərbaycan-Ermənistan üçbucağında güc nisbəti kardinal şəkildə Azərbaycanın xeyrinə dəyişdi

**Dünya miqyasında, o cümlədən MDB məkanında yer alan dövlətlərin Azərbaycan və Ermənistana tamamilə fərqli münasibətlər sərgiləməsi, buna uyğun əməkdaşlıq qurması heç kimə sirr deyil. Məsələn, Rusiyanın hər iki dövlətlə əməkdaşlıqda indi tamam fərqli mövqe tutması Ermənistanın özündə belə açıq etiraf olunur və İrəvan üçün böyük təhlükə sayılır.**

Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində də Ermənistan Azərbaycanla müqayisədə kifayət qədər arxa plandadır.

Hadisələrin inkişaf axarı göstərir ki, yaxın tezlikdə postsovet məkanında Ermənistan daha bir dövlət üçün arzuolunmaz subyektə çevriləcək. Söhbət Ukraynadan gedir. Məsələ burasındadır ki, Ermənistan separatçı mövqeyini Ukraynaya qarşı da sərgiləyir. Rusiya mətbuatının yazdıqlarından belə bəlli olur ki, Ermənistan dünya dövlətləri arasında ilk dəfə Krım yarımadası ilə qarşılıqlı müntəzəm uçuşlar təşkil edəcək. Məlumata görə, Ermənistan artıq bu ildən Krımla müntəzəm aviareyslərə başlayacaq. Qeyd edilir ki, İrəvanla Simferopol arasında müntəzəm reyslərə martda start veriləcək. Uçuşları həyata keçirəcək aviaşirkət artıq bununla bağlı icazə alıb. Hazırda tərəflər arasında uçuş cədvəlinin uyğunlaşdırılması, həmçinin aeroportların razılaşdırılması prosesi həyata keçirilir. Mart ayından həftə ərzində iki dəfə uçuşların təşkil olunması planlaşdırılır. Bildirilir ki, sonrakı uçuşlar tələbat üzrə planlaşdırılacaq. Qeyd edək ki, Ermənistan bununla dünyada Krımla müntəzəm beynəlxalq reys təşkil edən ilk dövlət olacaq. Təbii ki, belə vəziyyət Kiyev tərəfindən xoş qarşılanmayacaq. Təbii ki, buna paralel olaraq Ukrayna Azərbaycanla əməkdaşlığı daha da gücləndirməyə mühüm önəm verəcək. Onsuz da bu məsələ Ukrayna üçün prioritet idi. Ukrayna prezidenti Vladimir Zelenskinin Azərbaycana son səfəri də bunun təsdiqi oldu. Bu səfər daha çox Zelenskinin Cənubi Qafqazda ilk rəsmi səfərini Bakıya etməsi fonunda da diqqət çəkdi və göstərdi ki, Ukraynanın hazırkı rəhbərliyi də Azərbaycanla münasibətləri inkişaf etdirmək istəyindədir. Zelenskinin Bakı səfərindən sonra Azərbaycanın strateji maraqları, bu maraqlar kontekstində işğalçı Ermənistanın, bu ölkənin beynəlxalq miqyasda əsas rıçağı olan erməni diasporunun Ukraynada mövqeyinin zəiflədilməsi tamamilə gözlənilən idi. İndi Ermənistan Krımla müntəzəm beynəlxalq aviareyslər təşkil edən ilk dövlət olduğu üçün cavab tədbiri qismində Ukrayna qeyd olunan prosesi daha da sürətləndirəcək. Bakı isə real vəziyyətdə Kiyev üçün iqtisadi əlaqələr, regionun əsas gücü ilə maraqlarını uzlaşdırmaq, enerji təminatında alternativ olmaq baxımından əhəmiyyətli oyunçudur. Kiyevin Bakı üçün önəmi də xüsusi diqqət çəkir. Əvvəla, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquqa uyğun həllində eyni taleyi yaşayan ölkənin dəstəyini Azərbaycan daha çox alacaq. Ukraynada yaşayan Azərbaycan icmasının mövqelərinin gücləndirilməsi də xüsusi diqqət mərkəzində olacaq. Eləcə də, Qərbin Şərqə doğru uzanan strategiyasında əsas qapılardan biri ilə əlaqələrin müsbət məcrada inkişafı Azərbaycana mühüm dividendlər vəd edir. Amma ən əsası, ərazi bütövlüyü, suverenlik və sərhədlərin toxunulmazlığı prinsiplərinə münasibətdə hər iki dövlətin eyni yanaşması mövcuddur. Bu da hər iki tərəfdən qarşılıqlı anlaşma şəraitində qəbul olunan məsələlərdir. Xüsusilə təhlükəsizlik sahəsində Bakı-Kiyev münasibətlərinin inkişaf etdirilməsi üçün daha geniş imkanlar mövcuddur. Bunların hamısı nəticə etibarı ilə ənənəvi Azərbaycan-Ukrayna dostluq münasibətlərinin yeni müstəviyə çıxarılması üçün yaxşı imkanlar yaradır. Ermənistanın dünyada Krımla müntəzəm beynəlxalq reyslər təşkil edən ilk dövlət olması isə Kiyevi Bakıya daha çox yaxınlaşdıracaq amil sayılır. Ukraynalı analitik Vitali Portnikov bu xüsusda bildirir: "Ukrayna 1990-cı illərdən bəri ölkəsinin konstitusiya ilə müəyyən edilmiş sərhədləri daxilində Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edib".

Portnikov Ermənistanın, onun hakimiyyət üzvlərinin Ukraynanın ərazi bütövlüyü ilə bağlı mövqeyini, həmçinin Ermənistanın BMT-də, beynəlxalq platformalarda Rusiyanın mövqeyini müdafiə edən dövlətlərin sırasında olduğu görünən səsvermələrini də xatırladır:"Ukraynanın ərazi bütövlüyü, Krımla bağlı qətnamələrə gəlincə, Ermənistan müvafiq qaydada səs verir, bu həqiqətən də Ermənistan-Ukrayna münasibətlərinə təsir edir. Ukrayna Ermənistanın ərazi bütövlüyünü tanıdığı kimi, Ermənistan da Ukraynanın ərazi bütövlüyünü tanımaq üçün eyni qaydada davranmalı idi. Azərbaycanın ərazi bütövlüyünü tanımaq heç bir şəkildə Ermənistanın ərazi bütövlüyünü tanımamaq demək deyil. Ukrayna həm Azərbaycanın, həm də Ermənistanın ərazi bütövlüyünü tanıyır. Sadəcə, bu açıq həqiqətləri aydın şəkildə vurğulamaq istəyirəm".



**İndiki halda Ermənistan-Ukrayna münasibətlərinə gəlincə, ekspert qeyd edib ki, münasibətlər xeyli dərəcədə müvafiq ölkələrdəki vəziyyətdən və xüsusən də hər bir ölkənin xarici siyasət istiqamətindən asılıdır:"Ukrayna Rusiya ilə hərbi münaqişədə olan bir dövlətdir. Ərazimizin bir hissəsi Rusiya Federasiyası tərəfindən işğal olunub, digər hissəsi isə Rusiya tərəfindən ilhaqa məruz qalıb. İşğalçıların olduğu Krım Muxtar Respublikasını, Donetsk və Luqansk vilayətlərini nəzərdə tuturam. Bunlar Ukraynada qanunla təsdiqlənmiş faktlardır. Ermənistan isə, xatırladım ki, təcavüzkar dövlətin ən yaxın müttəfiqlərindən biridir. Həm də bu əlaqələrin inkişaf etdiyi xarici mühiti nəzərə alıram".**

***Nahid SALAYEV***

**Yaxın Şərqdə hələ də sengiməyən gərginliyin təsir göstərdiyi əsas sahələrdən biri enerji və maliyyə sektorudur. Artıq məlumdur ki, ABŞ və İran arasında baş verənlər neftin qiymətini müəyyən dərəcədə bahalaşdırıb. Hesab edilir ki, gərginlik davam edərsə, qeyd olunan istiqamətlərdə vəziyyət daha sürətlə dəyişəcək.**

# Manatı bahalaşdıra biləcək yeni təzyiqlər var...

Gərginliyin isə davam edəcəyi istisna olunmur. Çünki İran hərbçilərinin son açıqlamalarından belə bəlli olur ki, onlar ABŞ-ın Yaxın Şərqdəki obyektlərinə zərbələri davam etdirməyi düşünür.

Hadisələr bu istiqamətdə davam edərsə, neftin qiymətinin yenidən dəyişməsi, bu fonda dolların ucuzlaşması gözlənilir. Digər tərəfdən xatırladaq ki, ABŞ onsuz da dolları ucuzlaşdırmağı düşünür. Bundan əvvəl isə bir çox nüfuzlu maliyyə təsisatlarının ekspertləri 2020-ci ildə dolların məzənnəsinin azalacağına dair də proqnozlar vermişdi. Ekspertlərin ümumi proqnozuna əsasən, bu il ərzində avronun məzənnəsi hazırkı 1,1 dollardan 1,16 dollaradək artacaq. Proqnoza görə, ABŞ Federal Ehtiyatlar Sistemi faiz dərəcələrini dəyişmək fikrində olmadığı üçün sərmayəçilər daha risqli yatırımlara yönəlir, dolların məzənnəsi azalır. Belə ki, bu ilin sonunda avronun dollara qarşı məzənnəsi "Goldman Sachs" bankına görə 1,15, "Deutsche Bank"a görə 1,2 olacaq. "Bank of America"nın ekspertləri isə ABŞ-Çin ticarət qarşıdurmasının mühüm təsiri olacağını bildiriblər. İndiki halda bura ABŞ-İran gərginliyi də əlavə olunur. Aydındır ki, dollar ətrafında baş verənlər manata da təsirsiz ötüşməyəcək. Bu barədə danışmazdan öncə xatırladaq ki, Mərkəzi Bank bu il manatın məzənnəsinin, ən azından, indiki həddə qalmasında maraqlıdır. Mərkəzi Bankın 2020-ci il və ortamüddətli dövr üçün pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri barədə bəyanatında bu xüsusda bildirilir: "Mövcud məzənnə rejimi çərçivəsində Mərkəzi Bank manatın məzənnəsinin makroiqtisadi fundamentallar əsasında formalaşmasına şərait yaradacaq. Manatın məzənnəsinin uzunmüddətli dinamikasını müəyyənləşdirən başlıca amil tədiyə balansının vəziyyəti olacaq ki, bu da xarici şokların və kapital axınlarının təsiri ilə dəyişə bilər. Ona görə də başlıca ixrac məhsulları üzrə qiymətlərin dəyişimi və kapital axınları, eləcə də nominal və real effektiv məzənnələrin dinamikası daim monitorinq olunacaq, onların iqtisadiyyata və maliyyə bazarlarına təsirləri diqqətdə saxlanacaq". Buradan aydın görünür ki, manatın sabit məzənnədə qalması xüsusi diqqət mərkəzində yer alacaq. Amma dollar ətrafında baş verənlər, Yaxın Şərqşdə artan gərginlik cari ildə manatın güclənməsi istiqamətində əlavə təzyiqlər yaradır. İqtisadçı Samir Əliyev isə bildirir ki, baş verənlər artıq ölkənin valyuta ehtiyatlarının artımına təsir edir. Onun sözlərinə görə, ötən il Mərkəzi Bank öz valyuta ehtiyatlarını 11% artıraraq 6,3 milyard dollara çatdırıb: "Bankın ehtiyatlarının il ərzində 632,3 milyon dollar artmasında valyuta alışı müdaxiləsi də rol oynayıb. Məhz bu müdaxilə ilə Mərkəzi Bank manatın bahalaşmasına imkan verməyib. Daxili valyuta bazarında t?klifin t?l?bi üst?l?məsi səbəbindən manat bahalaşma təzyiqi altında olub. Bu isə onu deməyə əsas verir ki, ötən il manatın üzən məzənnə rejiminə keçidi onun bahalaşması ilə nəticələnə bilərdi. Bu rəyi Mərkəzi Bank 2020-ci il üzrə pul v? maliyy? sabitliyi siyas?tinin ?sas istiqam?tl?ri ilə bağlı bəyanatında da təsdiq edir. İdxalın təxminən 20%-ə qədər artımı da valyuta tələbatına ciddi təsir göstərə bilməyib". S.Əliyevin sözlərinə görə, bu il manatın məzənnəsinə ciddi dəyişiklik gözlənilmir: "Yalnız 2 hal - neftin kəskin ucuzlaşması və siyasi qeyri-sabitlik istisnadır. Hökumət, ən azı, ilin birinci yarısında manatı indiki səviyyədə saxlayacaq". Bank və maliyyə məsələləri üzrə ekspert Əkrəm Həsənov tədiyə balansının müsbət olmasının manata təsirsiz ötüşmədiyini bildirir: "Burada neft amili də mühüm rol oynayır. Hazırda neftin qiyməti iqtisadiyyatdan yox, daha çox geosiyasətdən asılıdır". Geosiyasətdə yaşanan gərginliklər isə, yuxarıda qeyd olunduğu kimi, neftin qiymətini yüksək həddə saxlayır. Başqa faktorlar da prosesə təsir göstərir. Məlumdur ki, artıq bir çox ölkələr ticarətin milli valyutalar üzərindən həyata keçirilməsi istiqamətində çoxsaylı sazişlər imzalayıb. Rusiya, Türkiyə, Çin və İran bu istiqamətdə artıq müvafiq addımlar atır. Venesuelada bank əməliyyatlarında dollar istifadə edilmir. Hətta Türkiyə, Rusiya və İran milli pul vahidləri ilə ticarət aparılması məsələsində razılığa gəliblər. Eləcə də Rusiya və Avropa İttifaqı maliyyə əməliyyatlarının rubl və avro ilə aparılması ilə bağlı işçi qrup yaradıb. İraq da artıq bir sıra qarşılıqlı ticarət əməliyyatlarında dollardan imtina edir. Bütün bunlar isə dollara təsirsiz ötüşmür, ona dünyada və Azərbaycanda tələbi azaldır. Həmçinin, ABŞ-ın bəzi ölkələrə qarşı iqtisadi savaşı da duruma təsir edir.



**Məsələn, Çin, Rusiya kimi ölkələr ABŞ-dan aldıqları qiymətli kağızları satır. Bu ölkələrin və digərlərinin istiqraz satışından əldə etdiyi dollar kütləsini satışa çıxaracağı və bu yolla Amerika valyutasının məzənnəsini zəiflədəcəyi gözlənir. Bir sıra ərəb ölkələri də ABŞ qiymətli kağızlarından xilas olmağa çalışır. Qeyd edilənlər fonunda qarşıdakı dövr ərzində manatın dollar qarşısında artıq müəyyən qədər dəyər qazanması qaçılmaz sayılır. Düzdür, bunu şərtləndirən səbəb təkcə yuxarıda qeyd olunanlar deyil. Azərbaycanda idxalın getdikcə azalması, ixracın artması da dolların mövqeyini zəiflədir. Bu gedişlə dollara tələbin, sifarişin daha da azalacağı gözlənir. Bu da, təbii ki, manatın məzənnəsinin möhkəmlənməsinə təsir göstərir.**

***Ramil QULİYEV***

# İranda düşən Ukrayna təyyarəsilə bağlı şok iddialar... Tramp "Boeing"i İranın vurduğunu, Kanada əllərində sübutlar olduğunu açıqladı, Tehrandan da açıqlamalar var...

**Bir neçə gün əvvəl Ukrayna sərnişin təyyarəsinin Tehran hava limanından qalxdıqdan qısa müddət sonra qəzaya uğraması tam aydınlaşmadığı üçün ciddi şübhələrə yol açıb. Təyyarənin qəzaya uğradığı vaxt İran ABŞ-ın İraqdakı iki bazasına bir neçə dəfə raket zərbələri endirib.**

Məhz iki hadisənin eyni günə təsadüf etməsi təyyarəni İranın təsadüfən vurmuş ola biləcəyinə dair iddiaların ortaya atılmasına səbəb olub.

Baki-xeber.com xarici mediaya istinadən xəbər verir, Qərb mediasında, ABŞ, Kanada və Böyük Britaniyadan gələn bütün açıqlamalarda İran günahlandırılır və təyyarəni İranın vurduğu iddia edilir.

Qeyd edək ki, Tehran-Kiyev reysini həyata keçirən "Boeing 737-800" təyyarəsinin qəzaya uğraması nəticəsində təyyarədə olan 176 nəfərin hamısını ölüb, onlardan 167 nəfəri isə müxtəlif ölkələrdən olan sərnişinlər olub.

İran Mülki Aviasiya Təşkilatının prezidenti Əli Abidzadə araşdırma qrupu tərəfindən hazırlanan ilkin hesabata istinadən təyyarənin havaya qalxdıqdan sonra radarlardan itdiyini və qəzaya uğradığını deyib: "Təyyarə yerə düşdükdən sonra parçalanır. Düşmə zamanı baş verən anormal vəziyyətlə əlaqədar pilotdan heç bir yardım çağırışı alınmır. Şahidlərin sözlərinə görə, təyyarə əvvəlcə alov alır, alov təyyarənin hər tərəfinə yayılır və sonra yerə çırpılır. Partlayış da təyyarənin yerə çırpılması nəticəsində baş verir".



"Qəzanın baş verdiyi istiqamət də təyyarənin öncə qərbə doğru getdiyini və problem yarandığı üçün hava limanına qayıtmağa çalışarkən düşdüyünü göstərir" - Abidzadə deyib.

ABŞ prezidenti Donald Tramp isə təyyarənin düşməsilə bağlı şübhələri olduğunu və səhvən vurulmuş ola biləcəyini deyib. "Tehranda qəzaya uğrayan Ukrayna təyyarəsini təsadüfən İran vurmuş ola bilər. Dəhşətli bir şeyin baş verdiyini hiss edirəm… Orada kimsə səhv edə bilər. Bəzi insanlar təyyarənin texniki səbəblərdən qəzaya uğradığını deyir. Məncə bu sual doğurur" - Tramp deyib.

Amerika rəsmilərindən biri ABŞ peyklərinin təyyarə qalxmazdan çox qısa müddət əvvəl İrandan iki raketin atıldığını qeydə aldıqlarını, iki ABŞ rəsmisi isə Vaşinqtonun təyyarənin təsadüfən vurulduğuna inandığını söyləyib. Amerika kəşfiyyat rəsmiləri isə Tehrandan havaya qalxdıqdan az sonra qəzaya uğrayan Ukrayna təyyarəsinin İranın Rusiya istehsallı zenit raketi ilə vurulduğuna inanır. Fox News telekanalına danışan ABŞ rəsmisi deyib ki, güman ki, Tor yer-hava raketlər sisteminin tərkibində olan Rusiya istehsallı SA15 raketi təyyarəni vurub. Rusiya 2007-ci ildə İrana Tor-M1 tipli 29 raket verib. Bu təchizat 2005-ci ilin dekabrında imzalanmış 700 milyon dollarlıq hərbi kontrakt çərçivəsində həyata keçirilib.

Ukrayna Mili Təhlükəsizlik Şurasının katibi Oleksiy Danilov da qəza məkanı yaxınlığında həmin raketin elementlərinin tapıldığına dair internetdə məlumatlar dolaşdığını bildirib. Ancaq o, bu informasiyanı harda gördüyünün təfərrüatına varmayıb.

Kanada Baş naziri Justin Trudeau isə Kanada kəşfiyyatının əlində Ukrayna təyyarəsinin İrana aid raketlə təsadüfən vurulduğuna dair sübutlar olduğunu açıqlayıb.

Qəzaya uğrayan təyyarədə 63 Kanada vətəndaşı da həlak olub.

Trudeau həm Kanada kəşfiyyatına, həm də bəzi müttəfiq ölkələrin əldə etdiyi kəşfiyyat məlumatlarına istinad edərək, Ukrayna təyyarəsinin yer-hava tipli İran raketi ilə vurulduğunu deyib: "Lakin bu təsadüf də ola bilər".

Təyyarənin nə tipli raketlə və hansı şəraitdə vurulmuş ola biləcəyinə dair suallara cavab verməyən Trudeau əllərində olan çox sayda kəşfiyyat məlumatlarından əmin olduqlarını ifadə edib.

İngiltərə Baş naziri Boris Conson da Ukrayna təyyarəsinin İran raketi ilə düşürüldüyünə dair izlər olduğunu deyib.

İran isə təyyarənin vurulmadığına dair əllərində inandırıcı dəlillərin olduğunu deyir. İran Mülki Aviasiya Təşkilatı Qəzaları Araşdırma Komissiyasının rəhbəri Həsən Rızayifer Tehranda qəzaya uğrayan Ukrayna Hava Yollarına məxsus sərnişin təyyarəsinin vurulmadığına dair əllərində inandırıcı sübutların olduğunu və bunları bölüşməyə hazır olduqlarını söyləyib.

Rizayifer dünyanın heç bir ölkəsinin qəzanın səbəbini belə qısa müddətdə açа bilmədiyini deyərək, "xarici mətbuatın İrana qarşı kampaniya başlatmaq istədiyini" iddia edib.

Qara qutuların ABŞ-a verilməsi məsələsinə də toxunan Rızayifer, yerli və beynəlxalq qanunlara görə, qara qutuların qəzanın baş verdiyi ölkədə araşdırılması gərəkdiyini deyib: "İranda qara qutuları oxumaq imkanımız var. Qara qutuların zədələnməsi səbəbindən onu təmir etmək üçün lazım olan imkanlarımız da var. Qara qutuların oxunduğu yerə amerikalıların gəlməsi ilə bağlı heç bir problem yoxdur, ancaq onlar gəlmək üçün Senatdan icazə almalıdır".

Rizayifer Ukrayna rnümayəndələrinin də İranda olduğunu və Kanadanın imkanlarından faydalandıqlarını söyləyib: "Rusiya və Fransa avadanlıq və yardım göndərməyə hazır olduqlarını bildirib. Qara qutuları təmir edə bilməsək, əvvəllər olduğu kimi onları Fransa, ya da kifayət qədər imkanları olan başqa bir ölkəyə göndərəcəyik".

Qəzaya uğrayan təyyarə ilə bağlı bir görüntü də yayılıb. Görüntülərdə, tam aydın olmasa da, təyyarəyə nəyinsə dəydiyi, ardınca alovlanmağa başladığı görünür. İran Mülki Aviasiya Təşkilatının prezidenti Əli Abidzadə isə təyyarənin vurulduğuna dair iddiaları məntiqli saymır: "Görüntülərin fərqli insanlardan gəldiyini bilirik. Görüntülər bunu ortaya qoyur - 60-70 saniyə arasında təyyarənin yandığı görünür. Bizim dediklərimizlə üst-üstə düşür. Videoda təyyarəyə bir şey dəydimi? Bu bizə məntiqli gəlmir….

Gedərkən bir şeyin təyyarəyə çırpılması məntiqli gəlmir. Orada təyyarə kiçik bir əraziyə düşüb. Partlayış olsaydı çox fərqli bir əraziyə yayılardı, amma bu baş verməyib.

Araşdırmalar üçün İsveçrə və Kanadadan kömək və araşdırmalarda iştirak etmələrini istədik. Bu hadisənin tamamilə ortaya çıxacağında səmimiyik, kömək istədik, nəyin baş verdiyini dəqiq bilmək istəyirik.

Təyyarənin qalxmasında da gecikmə var idi. Maraqlıdır. Qüllə və pilotun danışıqlarına görə, yanacaq problemi olmayıb. Təyyarənin düşmə səbəbi ilə bağlı araşdırmalar 1-2 il davam edəcək. Hadisəni aydınlaşdırmaq üçün digər ölkələrdən kömək istədik".

Onu da qeyd edək ki, bu bəyanatlardan sonra Ukrayna prezidenti Vladimir Zelenski ABŞ, Kanada, Böyük Britaniyaya çağırış edərək əllərindəki sübutların onlara verilməsini istəyib.

***baki-xeber.com***

**Dünya siyasi gündəminin hələ də əsas aparıcı mövzusu ABŞ və İran arasında baş verənlər və bunun sonrakı gedişidir. Məhz belə bir vaxtda İran tərəfi olduqca diqqət cəlb edən bir açıqlama yayıb. İranın Baş Qərargahının mətbuat xidməti savaşın davam edəcəyini açıqlayıb:**

# İranın "İraqda ABŞ-a ilk zərbələrinin yoxlama xarakterdə olması" iddiaları...

"ABŞ-ın İraqdakı bazalarına endirilən raket zərbələri ilə intiqam hücumlarımız başa çatmayıb".

Açıqlamaya görə, Vaşinqton intiqam hücumlarının növbəti mərhələsinin irəlidə olduğunu bilməlidir:"Əvvəl həyata keçirilən hücumlarla intiqam cavabının başa çatdığını düşünmürük. Əsas intiqam elə səviyyədə olacaq ki, amerikalılar bölgədən çıxıb getmək məcburiyyətində qalacaqlar". Açıqlamada qeyd olunub ki, son hücumlar ABŞ-ın müdafiə sistemlərinin istənilən səviyyədə olmadığını ortaya qoyub. İslam İnqilabı Keşikçiləri Korpusunun nümayəndəsi, əməliyyata komandanlıq edən generalın köməkçisi Abbas Nilfuruşan bildirir ki, ABŞ bazalarına endirilən raketlər hədəfi dəqiqliklə vurub. O qeyd edir ki, amerikalı hərbçilər texnologiyalar vasitəsilə raketlərin istiqamətini dəyişdirməyə cəhd etsələr də, nəticəsiz qalıb. Abbasın sözlərinə görə, mərmilər bir metr olsun belə hədəfdən yayınmayıb. Xatırladaq ki, raketlərin ABŞ bazalarını vurmadığı barədə iddialar var. Pentaqonun açıqlamasına görə, İran vəziyyətin daha da gərginləşməməsi üçün bilərəkdən raketləri boş ərazilərə endirib. Bu üzdən təlafatın olmadığı irəli sürülüb. Qeyd edək ki, Qərb mediasında İranın atdığı raketlərdən bir neçəsinin boş əraziyə düşdüyünə dair fotolar yayılıb. Amma yuxarıda səslənən fikirlərdən belə bəlli olur ki, tərəflərin savaşı davam edəcək. Xatırladaq ki, tərəflərin əsas savaş meydanı İraqdır. Belə ki, ABŞ İranı İraqda vurur. İran ABŞ-ı yenə də İraqda vurur.

İranın əsas niyyəti, əslində İraqdan ABŞ qüvvələrini çıxarmaqdır. Belə vəziyyətdən təkcə ABŞ yox, onun bölgədəki qüvvələri də ciddi narahatdır. Hətta Səudiyyə Ərəbistanının xarici işlər üzrə dövlət naziri Adil əl-Cubeyr bildirib ki, ölkəsi İraqda müharibəyə və qan tökülməsinə imkan verməyəcək:"Səudiyyə Ərəbistanı Krallığı İraqdakı vəziyyəti diqqət və narahatlıqla izləyir və bu ölkədə müharibə və zorakılığın baş verməməsinə çalışır". Adil əl-Cubeyr vurğulayıb ki, onlar İranın İraqda güclənməsinə qarşıdır. İsrail Baş Qərargah Rəisliyi də İraqda İranın güclənməsinə imkan vermək niyyətində olmadıqlarını açıqlayıb. Bura, həmçinin, Suriya da daxil edilib.




Məhz belə bir vaxtda İsrailin Pilotsuz Uçuş Aparatları İraq-Suriya sərhədindəki bəzi mövqelərə avia-zərbələr endirib. Faktı təsdiq edən Suriya İnsan Haqlarını Müşahidə Şurası hücumda İranın dəstəklədiyi milislərin hədəf alındığını açıqlayıb. Bildirilib ki, bölgədəki şiə milislərinə aid depo və silahdaşıyan maşınlar partladılıb. Livanın "Əl-Mayadin" kanalı isə İsrailə aid PUA-ların Suriya-İraq sərhədində bəzi hədəfləri vurduğunu bildirib. İsrailin "Haaretz" qəzeti son zamanlarda İraqda bir sıra hücumların İsrailin adına yazıldığını, bunlardan bəzilərinin Suriya-İraq sərhədinə və Əbu-Kamal-Qətər keçidinə yaxın ərazilərdə olduğunu xatırladıb. "Haaretz"ə görə, hücumlar İran dəstəkli şiələri və silah daşıyan yük maşınlarını hədəf alır.

Qeyd edək ki, İsrailin baş naziri Benyamin Netenyahu general Qasım Süleymaninin öldürülməsi ilə bağlı ilk açıqlamasında ABŞ prezidenti Donald Trampa dəstək mesajı verməşdi "Prezident Tramp sürətli, güclü və qətiyyətli formada hərəkət etdiyi üçün hörmətə layiqdir. İsrail sülh, müdafiə və təhlükəsizlik mübarizəsində ABŞ-ın yanındadır".

Bütün bunlardan belə görünür ki, ABŞ İraqda və Suriyada mövqelərini qorumaq üçün İsrail, Səudiyyə Ərəbistanı kimi ölkələrdən istifadə etməyi düşünür. Bunun əvəzində İranın İraqda və Suriyada ona bağlı qüvvələri daha aktiv hala gətirməsi proqnozlaşdırılır. Yəməndə husilərlə bağlı olan proseslərin daha kəskin, ciddi bir mərhələyə qədəm qoyması ehtimalı yüksəkdir. Livanda da vəziyyətin qarışması qaçılmaz sayılır. Bu durumda İranla açıq savaşa getməyin qarşısını almaq üçün ABŞ Konqresinin Nümayəndələr Palatası ölkə prezidenti Donald Trampın qanunvericilər tərəfindən müvafiq icazə olmadan İrana qarşı Silahlı Qüvvələrdən istifadə məsələsində səlahiyyətlərini məhdudlaşdıran qətnaməni bəyənib. Qətnamə prezidentin üzərinə ABŞ administrasiyasının Konqresdən müvafiq icazəni almayana qədər və ya "Birləşmiş Ştatlara silahlı hücum" olmayınca İrana qarşı və onun ərazisində hərbi hərəkətlərə başlamamaq öhdəliyi qoyur.

**Oxşar qətnamə respublikaçılar tərəfindən nəzarət edilən Senata göndərilib. Sənədin yuxarı palata tərəfindən qəbul olunacağı istisna edilmir. Ağ Evin mətbuat katibinin müavini Hoqan Qidli bildirib ki, ABŞ Nümayəndələr Palatasının Trampın İrana qarşı silahlı qüvvələrdən icazəsiz istifadə etməsini qadağan edən qətnaməsi Ağ Ev tərəfindən müsbət qiymətləndirilməyib. O, Trampın prezident olaraq ölkəni və amerikalıları terror fəaliyyətindən qorumaq hüququna sahib olduğunu vurğulayıb. Qidli qətnaməni ölkənin hərbi qüvvələrinin İranın terror fəaliyyətlərinin qarşısını almaq qabiliyyətinə xələl gətirəcək bir səhv adlandırıb.**

*Tahir TAĞIYEV*

**Hələ də mövqeyini qoruyub saxlamağa çalışan "Qarabağ klanı" ilə Nikol Paşinyan iqtidarı arasında çəkişmə davam edir. Bunun təsir göstərdyi əsas məqamlardan biri isə birbaşa Dağlıq Qarabağ münaqişəsidir. Belə görünür ki, tərəflər niyyətlərinə çatmaq üçün bu konfliktdən hələ də siyasi məqsədlər üçün istifadə edir.**

# Qarabağ problemi "Qarabağ klanı" ilə Nikol Paşinyan iqtidarı arasında bir-birini məhv etmək üsuluna çevrilir...

Bu barədə danışmazdan öncə qeyd edək ki, "Qarabağ klanı"nın əsas rəhbərlərini sıradan çıxarmaq üçün Paşinyan inzibati metodları işə salıb. Bu fonda Ermənistanın sabiq prezidenti Serj Sarkisyana qarşı cinayət işi üzrə ibtidai istintaq da artıq başa çatıb.

Sarkisyanın vəkili Aram Makinyanın sözlərinə görə, ilkin istintaq başa çatıb və müdafiə tərəfinə tanış olmaq üçün cinayət işinin materialları təqdim olunub. Xatırladaq ki, 2019-cu il dekabrın əvvəlində Xüsusi İstintaq Xidməti Sarkisyana qarşı mənimsəmə və ya oğurluq ittihamı irəli sürüb. Keçmiş prezident 2013-cü il yanvarın 25-dən fevralın 7-dək 1 milyon dollar dövlət vəsaitini oğurlamaqda təqsirli bilinir. Xüsusi İstintaq Xidmətinin sözçüsü Marina Ohancanyan istintaq orqanının əldə etdiyi sübutların ittiham elan etmək və işin məhkəməyə göndərilməsi üçün yetərli olduğunu bildirib:"İş materialları tanış olmaları üçün təqsirləndirilən şəxslərə və onların nümayəndələrinə təqdim edilib". Ermənistanın ikinci prezidenti Robert Köçəryana qarşı açılmış cinayət işi üzrə məhkəmə prosesi də davam edir. Ermənistanda, demək olar ki, "Qarabağ klanı"nın mövqeləri sarsılıb. Amma Azərbaycanın işğal edilmiş ərazilərində onlar hələ də mövqelərini qoruyub saxlayır. Bu fonda diqqət çəkən daha bir məqam Ermənistan Xüsusi İstintaq Xidmətinin qondarma rejiminin "milli təhlükəsizlik şurasının" keçmiş "katibi", general-mayor Vitali Balasanyanı istintaqa dəvət etməsidir. Bunun üçün İstintaq Xidməti qondarma rejimin "prokurorluq" orqanlarına müraciət edib. 10 nəfərin ölümü ilə nəticələnən 2008-ci il 1 mart hadisələri ilə bağlı cinayət işində şahid kimi ifadə verməli olan Balasanyan 2 dəfə istintaqın dəvətini qəbul etməyib. Amma onun Paşinyan hakimiyyətinə qarşı son vaxtlar etdiyi sərt çıxışlar rəsmi İrəvanda narahatlıqla qarşılanır. Belə ki, 2020-ci ildə işğal altındakı torpaqlarda keçirilməli olan "prezident seçkiləri"nə namizədliyini irəli sürən Balasanyan "Qarabağ klanı"nın əksər üzvlərinin açıq dəmədiyi etirazları dilə gətirir. Onun Nikol Paşinyan və radikal "Sasna Tsrer" qruplaşması barədə sərt çıxışı isə ölkə cəmiyyətində böyük əks-səda doğurmuşdu: "Nikol Paşinyan və bu terrorçu qruplaşma bir-birinin tayıdır. Biri silahla, digəri isə hakimiyyəti ələ keçirməklə məşğuldur. Qoy Nikol Paşinyanın tərəfdarları bizi eşitsin və addım atsınlar". Son olaraq Balasanyanın həbsdə saxlanan Robert Köçəryanın xeyrinə öz ofisi qarşısında imzatoplama kampaniyasına başlaması Paşinyanın qəzəbinə səbəb olmuşdu. Faktiki olaraq, Qarabağdakı rejimin müdafiə etdiyi generalı İrəvana gətirmək Ermənistan hakimiyyəti üçün müşkül sayılır. ABŞ-ın Azərbaycandakı sabiq səfiri,




ATƏT-in Minsk Qrupunun keçmiş həmsədri Metyu Brayza isə "Qarabağ klanı" ilə Nikol Paşinyan iqtidarı arasında çəkişmənin Qarabağ konfliktinə təsir göstərdiyini bildirir: "2019-cu il Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün perspektivli bir il kimi başladı. Nikol Paşinyanın Ermənistanın baş naziri seçilməsi rəsmi İrəvan tərəfindən münaqişəyə yeni baxış olacağı kimi görünürdü. Bakıda keçirdiyim görüşlərdən, danışıqlardan çıxış edərək deyə bilərəm ki, rəsmi şəxslər optimist idilər. Onlar Paşinyanın Ermənistanın Dağlıq Qarabağ münaqişəsinə ənənəvi yanaşmasını dəyişdirə, bu münaqişədə hər hansı irəliləyişin əldə olunmasına təsir göstərə biləcəyini hesab edirdilər. Bu optimizmin sübutlarını prezident İlham Əliyevlə baş nazir Nikol Paşinyan arasında keçirilən görüşlərdən, eləcə də iki ölkənin XIN başçılarının apardıqları danışıqlardan da görmək olardı. Bu görüşlər çərçivəsində tərəflər xalqların sülhə hazırlanması üçün etimad tədbirlərinin qurulması barədə razılaşdılar. Ancaq optimizm o zaman yoxa çıxdı ki, "Qarabağ klanı" Paşinyanın münaqişəyə konstruktiv yanaşmasına negativ reaksiya verdi. Paşinyan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində yeni, güclü addımlar atmaq üçün öz siyasi gücünü toplamağı bacarmadı".

Sabiq diplomat "azvision" portalına açıqlamasında Ermənistan baş nazirinin ötən il səsləndirdiyi "Qarabağ Ermənistandır və nöqtə" kimi təxribatçı bəyanatlarına da toxunub. Onun sözlərinə görə, "Qarabağın müstəqil olması, yaxud Ermənistanın bir hissəsi olması" barədə açıqlamalar münaqişənin həlli üçün yüksək səviyyədə sarsıdıcıdır:

"Belə bəyanatlar əvvəllər heç vaxt nə Ermənistan, nə başqa ölkə tərəfindən səsləndirilib. Və bu açıqlamalar Paşinyanın 2019-cu ilin başlanğıcında sərgilədiyi yanaşmaya uyğun deyil. Beləliklə deyə bilərəm ki, Paşinyan "Qarabağ klanı"nın möhkəm təzyiqi altındadır. Hansı ki, bu klan Qarabağ münaqişəsinin nizamlanmasında irəliləyişin əldə olunmasını istəmir. Amerikada fəaliyyətdə olan "Daşnaksütyun" nümayəndələri, onlar eyni zamanda Amerikanın erməni icmasının üzvləridir, Amerika Senatına mənim Azərbaycanda səfir kimi fəaliyyətimi davam etdirməməyim, namizədliyimin təsdiqlənməməsi üçün təsir göstərdilər. Amerikada yaşayan "Daşnaksütyun" üzvləri Azərbaycan və Türkiyəyə nifrət bəsləyirlər. Onlar münaqişənin həll olunmasını istəmirlər, çünki inanırlar ki, davam edən münaqişə onlara Amerikada daha çox pul qazanmağa yardım edir. Onlar münaqişənin siyasi həllini istəmirlər və Dağlıq Qarabağ, ətraf 7 rayonu mənimsəmək niyyətindədilər. Onların, eləcə də Türkiyədəki torpaqlara iddiaları var, çünki məqsədləri "Böyük Ermənistan" yaratmaqdır".

Brayza həmçinin 2020-ci ildə münaqişənin nizamlanmasında gözləntilərini də açıqlayıb. Onun sözlərinə görə, hazırda optimizm üçün səbəb görmür: "Paşinyan 2019-cu ilin əvvəlində tutduğu konstruktiv yanaşmadan uzaqlaşmaqda davam edir. Düşünürəm ki, o, "Qarabağ klanı"nın təsiri altında qalmaqda davam edir.

**Beləliklə, Paşinyan istənilən bir konstruktiv addımı ata bilməyəcək. Hesab edirəm ki, hazırda baş verən Dağlıq Qarabağ və ətraf 7 rayonda qanunsuz məskunlaşma prosesi dayandırılmalıdır. Ümid edirəm ki, ATƏT-in Minsk Qrupu, üzv ölkələr, BMT bu cür məskunlaşmaların qanunsuz olduğu barədə öz münasibətini ortaya qoyacaq. Bu proses BMT Təhlükəsizlik Şurasının qətnamələrinə ziddir. İnanıram ki, ATƏT MQ, üzv ölkələr, BMT-nin bu barədə əvvəl tutduğu bəyanatları Paşinyanın daha konstruktiv mövqeyə qaytmasına yardım edə bilər".**

*Tahir TAĞIYEV*

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) sabiq prezidenti, akademik Akif Əlizadənin rəhbərliyi dövründə qurumda baş verən neqativ halların araşdırılmasına başlandığı barədə məlumatlar var.

# AMEA-da Akif Əlizadənin keçmiş ev bölgüsü ədalətsiz sayılmağa başlayır

## *İlqar Orucov: "Əvvəlki müqavilədə həmin yataqxanada yaşayan adamların..."*



AMEA sistemində çalışan alimlərin bir çoxu keçmiş rəhbərliyin qurum əməkdaşlarının çoxuna ədalətsiz münasibət bəslədiyini iddia edir. Əldə etdiyimiz məlumata görə, artıq qurumun bir sıra strukturlarında ciddi araşdırma işləri həyata keçirilir, işində, fəaliyyətində nöqsanlara yol verənlər ya işdən çıxarılır, ya da başqa şəkildə cəzalandırılır. AMEA-dakı mənbələrimizdən aldığımız məlumata görə, akademiyanın bir qrup əməkdaşı özlərinin təxminən bir-iki il əvvəl üzləşdiyi ədalətsiz mənzil bölgüsünün yenidən araşdırılması ilə bağlı AMEA-nın yeni rəhbərliyinə müraciət etməyə hazırlaşır. Artıq bununla bağlı qeyri-rəsmi müraciətlərin edildiyi bildirilir. AMEA əməkdaşları hesab edirlər ki, akademiyanın keçmiş rəhbərliyi mənzil bölgüsünə ədalətlə yanaşmayıb.

Keçən il mətbuatda ev ala bilməyən alimlərin ciddi etirazları dərc edilirdi, onlar bildirirdilər ki, AMEA rəhbərliyi tərəfindən mənzillər haqqı olmayanlara verilib. Qeyd edək ki, Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə küçəsi 12 ünvanında yerləşən yataqxanada məskunlaşmış AMEA əməkdaşları mənzil bölgüsü zamanı ev ala bilməmişdilər. Alimlərin etirazı mediada yer aldığı zaman AMEA-nın İşlər idarəsinin müdir müavini, mənzillərin bölüşdürülməsi komissiyasının katibi Sərdar Əliyev mətbuata göndərdiyi məktubda quruma qarşı ünvanlanmış ittihamların əsassız olduğunu bildirirdi. "AMEA-da işləyən və yataqxanada yaşayan alimlər mənzillə təmin edilib və bu məsələ ilə əlaqədar AMEA-da heç bir qalmaqal yoxdur. AMEA əməkdaşları mənzil bölgüsündən çox razıdırlar. Bu məsələnin ətraflı izahı məqsədilə aşağıdakıları bildiririk:

Akademiyanın keçmiş rəhbərliyi dövründə AMEA ilə "Evrostroy-S" MMC arasında AMEA-nın Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə küçəsi 12 ünvanında yerləşən yataqxanasında yaşayan əməkdaşlarının mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə yeni yaşayış evlərinin tikintisi barədə 14 noyabr 2012-ci il tarixli müqavilə bağlanıb. Yataqxana AMEA-nın balansında, ərazisi AMEA-ya aid olduğuna və qanunvericiliyə əsasən, yataqxana müvəqqəti yaşayış sahəsi hesab edildiyinə görə burada yaşayan sakinlər müqavilənin bağlanmasında tərəf kimi iştirak edə bilməzdilər. Belə ki, bu yataqxanadakı otaqlar özəlləşməmişdi və özəlləşdirilməsi də nəzədə tutulmur.

Müqavilədə podratçı tərəfindən həmin ərazidə inşa ediləcək 4 girişli 16 mərtəbəli yaşayış binasından 1 girişli 16 mərtəbəli yaşayış binasının ödənişsiz əsaslarla AMEA-ya ayrılması nəzərdə tutulmuşdu. Lakin müqavilə bağlanan zaman "Evrostroy-S" MMC tərəfindən ayrılacaq mənzillərin sayı və sahəsi göstərilmədiyinə görə çox çətinliklərlə üzləşdik.

Məlumat üçün bildiririk ki, müqavilə bağlanarkən yataqxanada 116-ya yaxın ailənin yaşamasına baxmayaraq, "Evrostroy-S" MMC Şərifzadə küçəsi 12 ünvanında inşa etdiyi binadan AMEA-ya 54 mənzil ayırdı. Bu mənzillər azlıq etdiyinə və həmin ünvanda əlavə mənzillər olmadığını bildirdiklərinə görə AMEA-nın təkidindən sonra "Evrostroy-S" MMC ətraf qəsəbələrdə inşa edilmiş yaşayış evlərindən də mənzillər ayırdı. Bu mənzillərin cəmi hətta yataqxana ilə əlaqədar olan və hazırda AMEA-da işləyən elmi işçilərə də azlıq etdi. Hazırda əlavə mənzillərin ayrılması üçün "Evrostroy-S" MMC ilə danışıqlar davam etdirilir. Hətta hüquq-mühafizə orqanlarına da müraciət etmişik". Bu, AMEA-nın rəsmi açıqlaması idi.

AMEA-nın verdiyi açıqlamadan belə görsənirdi ki, qalmaqalların səbəbkarı "Evrostroy-S" MMC-dir. Siyahıda 116 ailənin adı vardısa, tikinti şirkəti nə üçün AMEA-ya 54 mənzil ayırır?

Qeyd edilənə görə, 2012-ci ildə AMEA işçilərinin siyahıya alınmasında və mənzil məsələsinin həll edilməsində məsul şəxs olan akademiyanın və "Evrostroy-S" MMC-nin keçmiş işçisi Bəxtiyar Təhməzov mətbuata açıqlamasında "Mən qalmaqallardan sonra işdən çıxarılmışam. 3 ildən artıqdır ki, orada çalışmıram" - deyə bildirib.

AMEA, həmçinin, iddia edib ki, yataqxanada məskunlaşmış şəxslərin əksəriyyətinin orada qanuni yaşamaq hüququ yoxdur və bunlar araşdırıldıqdan sonra qurum yüzlərlə şəxsin qeydiyyatdan çıxarılmasına nail olub. Həmçinin, mənzillərin obyektiv bölüşdürülməsini təmin etmək məqsədilə komissiya yaradılıb: "Yataqxanada qeydiyyatda olub yaşayan və ya adına otaq olub yaşamayan 107 ailə var. Onlardan 71 ailə AMEA-da işləyən, 36 ailə isə AMEA-da işləməyənlərdir. Bunlardan əlavə, AMEA-da işləyən 48 əməkdaşın ailəsinin də (onlardan 34-ü fəlsəfə doktoru, 1-i elmlər doktorudur) əksəriyyətinin 20 ildən artıq müddətdir yataqxanada qeydiyyatda olduğu, lakin boş otaq olmadığına görə orada yaşamadıqları müəyyən edilib. Bu əməkdaşlar da mənzil almağa iddialıdırlar. Bunlardan yataqxanada otaq ayrılması barədə məhkəmə qərarı olanları və əvvəllər yataqxanada yaşamış, sonralar isə ailə qurduğuna görə kirayəyə çıxmışlar da var. Bu əməkdaşlar hesab edirlər ki, uzun illərdir kirayələrdə yaşamaq məcburiyyətində qaldıqlarına görə yataqxanada yaşayanlardan daha çox maddi və mənəvi sarsıntılara məruz qalmışlar".

Bildirək ki, AMEA Rəyasət Heyətinin 05 iyul 2017-ci il tarixli, 9/23 nömrəli qərarı ilə əvvəlki komissiyanın tərkibində dəyişiklik edilmişdi və yeni komissiyaya AMEA Gənc Alim və Mütəxəssislər Şurasının, Veteranlar Şurasının üzvləri də əlavə edilərək 7 nəfərdən 13 nəfərə artırılmışdı.

Qeyd edək ki, həmin dövrdə "Biz yataqxana sakinləri 2016-cı ildə Bakı şəhəri Yasamal rayonu A.M.Şərifzadə küçəsi 12-də yerləşən AMEA-nın Aspirantlar yataqxanası sakinləri adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ünvanladığımız müraciəti yenidən dövlət başçısına ünvanlayaraq bildirmək istəyirik ki, bu müraciətdə qeyd olunan bütün qanunsuzluqları AMEA prezidenti və onun ətrafındakı özbaşına məmurlar bu günə kimi (2019-cu ilə kimi) həyata keçiriblər və mənzil almaq hüquqlarımızı pozaraq Sizin humanistliklə imzaladığınız layihəni AMEA və "Sipark" ( "Evro Stroy-S" MMC) inşaat öz mənfəət bazalarına çeviriblər. Bu gün də bu qanunsuz əməlləri davam edir. "Sipark" inşaatla AMEA bizə ayrılan mənzilləri sataraq bizi evsiz qoyublar. Müraciət ünvanlanandan bu günə kimi bizim problemimiz öz həllini tapmamış, təəssüflər olsun ki, səsimizi də Sizə onların havadarlarının hesabına çatdıra bilməmişik.

Biz sakinlər bu yataqxanaya qanuni yollarla gəlmişik, vaxtilə AMEA əməkdaşı olmuşuq və bu gün də AMEA əməkdaşlarıyıq, amma AMEA rəhbərliyi və "Sipark" inşaat əlbirliyi ilə bütün qanunları pozaraq, bizim mənzillərimizi mənimsəyərək, Sizin verdiyiniz göstərişi həyata keçirməyərək, bizləri dövlətdən narazı salaraq, Sizin idarəetmə imicinizə ziyan vururlar".

Bu da keçən illər mənzil bölgüsündən kənarda qalan AMEA əməkdaşlarının ölkə başçısına müraciətindən bir parça idi.

Bu gün də yenidən bu məsələ qabardılıb və AMEA əməkdaşları yeni rəhbərlikdən mənzil bölgüsü ilə bağlı problemin yenidən, lakin obyektiv şəkildə araşdırılmasını istəyirlər.

Proses başlayandan onun içində olan və hadisələrə şahidlik edən Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov "Bakı-Xəbər"ə bildirdi ki, AMEA əməkdaşlarının vaxtilə üzləşdikləri ədalətsiz mənzil bölgüsünün yenidən araşdırılmasını tələb etmələri tamamilə doğru bir haldır və bu onların haqqıdır. İ.Orucov hesab edir ki, AMEA rəhbərliyi mənzil bölgüsü zamanı yaşanan bütün neqativ olayları araşdırmalı, ədalət bərpa olunmalı və evsiz insanların haqqını özünə qaytarmalıdır. "Bu məsələ olduqca aktual və həllini tapmayan bir problemdir. Bu gün də bu məsələnin gündəmə gətirilməsi, alimlərin tələblər irəli sürməsi tam yerindədir. Xatırlayıram, biz gənc alimlərin problemlərini müzakirə edən zaman Azərbaycan Milli Elmlər Akademiyasının aspirantlar yataqxanasının yerləşdiyi Şərifzadə küçəsi 12 ünvanında yataqxananın həyətindəki boş ərazidə gənc alimlər üçün yaşayış binası tikilməsi məsələsi qaldırdıq. Bununla həm də yataqxana sakinlərinin acınacaqlı durumunu yaxşılaşdırmağı düşünürdük. Cənab Prezident tərəfindən 2007-ci il respublikada "Gənclər ili" elan edildiyindən və cənab Prezidentin gəncləri qəbul etməsindən, gənclərə "mən gəncləri özümə dost bilirəm, mən sizə güvənirəm, siz də mənə güvənin" çağırışından sonra biz ölkə başçısına bir məktub hazırladıq. Bu məktub cənab Prezidentə göndərildi. Bundan sonra biz həmin ərazidə alimlər üçün yaşayış binasının tikilməsi ilə bağlı bir neçə aidiyyəti dövlət qurumunun təmsilçiləri ilə görüşdük. Yataqxana sakinlərinin israrlı müraciətlərindən sonra akademiyanın prezidenti akademik Mahmud Kərimov ölkə başçısına məktubla müraciət etdi. Çünki 2007-ci ildə güzəştli ipoteka kreditlərinin verilməsi ilə bağlı Azərbaycanda ölkə başçısının müvafiq qərarından sonra burada fəlsəfə doktoru və elmlər doktoru dərəcəsi alanlar da güzəştli ipoteka kreditlərindən yararlana bilərdilər. O zaman İpoteka Fondunun rəhbəri ilə görüşdüm və məlum oldu ki, gənc alimlərin əməkhaqqının aşağı olması heç cür onlara ipoteka kreditindən yararlanmağa imkan vermir. Bundan sonra məcbur qaldıq ki, evə, mənzilə ehtiyacı olan insanların problemlərinin həllinə nail olmaq üçün akademiyanın ərazilərindən istifadə edək. Beləliklə, biz həm özümüz bununla bağlı cənab Prezidentə məktub yazdıq, həm də AMEA-nın mərhum prezidenti, akademik Mahmud Kərimov Prezidentə məktubla müraciət etdi, cənab Prezident də müvafiq sərəncam imzaladı. Bu çox vaxt aparan bir iş idi və bizə tikinti şirkəti tapmaq lazım idi. O tikinti şirkəti tapıldı, onunla danışıqlar aparıldı, müqavilə imzalandı, akademiyanı təmin edən şərtlər daxilində binanın tikintisinə razılıq verildi. Nəzərdə tutulmuşdu ki, akademiyanın yataqxanasında yaşayan 118 nəfər evə ehtiyacı olan insan inşa edilən binada evlə təmin edilsin. Eyni zamanda, təklif olundu ki, növbəti mərhələdə oradakı başqa boş ərazidə də gənc alimlər üçün yaşayış binası tikilsin və ehtiyacı olan gənc alimlərə də mənzillər verilsin. Bu bina tikildi. Biz o vaxt araşdırıb müəyyənləşdirdik ki, təxminən 162 nəfər mənzilə ehtiyacı olan fəlsəfə doktoru dərəcəsi alan (səhv etmirəmsə aralarında 1-2 nəfər elmlər doktoru da vardı - İ.O.) alimlərin müvafiq sənədlərini topladıq. Belə oldu ki, 2013-cü ildə akademiyanın prezidenti Mahmud Kərimov dünyasını dəyişdi. Binanı tikən şirkətlə də müqaviləni birbaşa Mahmud Kərimov imzalamışdı. Həmin ərəfədə, eyni zamanda, müəyyən narazılıqlar da başlamışdı. Çünki Mahmud müəllim rəhmətə getdikdən sonra akademiyanın prezidenti vəzifəsinə gəlmiş Akif Əlizadə bizdən sənədləri istədi ki, o sənədləri mənə verin, mən onlarla tanış olmalıyam, görüm kimin həqiqətən mənzilə ehtiyacı var, kimin yoxdur. Biz o sənədləri ona təqdim etdik və sonrakı dönəmlərdə mən o prosesdən uzaqlaşdım, onlar özləri bu işləri görməyə başladılar".

İ.Orucov qeyd etdi ki, həmin dövrdə yataqxana sakinləri özləri də bir komitə yaradaraq bu işlə məşğul olurdular, hətta onlar bununla bağlı etiraz piketləri də keçirirdilər, tələblər edirdilər. "Onlar evlə təmin olunmalarını israrla tələb edirdilər. Əslində, əvvəlki müqavilədə həmin yataqxanada yaşayan adamların mütləq şəkildə mənzillə təmin olunması əks olunmuşdu. Çox təəssüf ki, sonrakı dövrlərdə bu bölgüyə yenidən "baxıldı". Mənzillər tikiləndən sonra orada bölgü prosesinin guya şəffaf olması ilə bağlı akademiyanın eks-prezidenti Akif Əlizadə bir neçə populist bəyanat səsləndirmişdi. Sonra məlum oldu ki, bu 85 yaşlı adamın yataqxanada yaşayan zavallı alimlər üçün tikilən o mənzillərdə gözü var imiş. O, dövlətdən bir neçə dəfə ev almasına baxmayaraq, bu binadan da özünə bir 4, bir 2 otaqlı mənzil götürmüşdü, onun mənzilləri ələ keçirməsi ilə bağlı müqavilələrin şəkilləri hətta mətbuatda da yayılmışdı. Eyni zamanda, gəlinin adına iki mənzilin (bir 4, bir 2 otaqlı) müqavilələrinin şəkli mətbuatda işıqlandırıldı. Yəni bir binadan yalnız 4 mənzili o özü ələ keçirdi. Həmçinin də akademiyanın vitse-prezidentləri də ondan "nümunə" götürərək evləri, mənzilləri ola-ola yenə də oradan mənzil aldılar. Çox təəssüf ki, akademik titulu olan ahıl insanlar bu cür saxtakarlığa əl atdılar. Nəticədə də xoşagəlməz hadisələr baş verdi. Məsələ burasındadır ki, həm yataqxanada yaşayan sakinlər, eyni zamanda, akademiyada illərlə mənzil gözləyən, həmin binadan mənzil alacaqlarına ümid edən gənclər də, təbii ki, qarşılaşdıqları ədalətsizliklərlə bağlı ölkə başçısına, ölkəmizin Birinci vitse-prezidentinə, eləcə də əlaqədar qurumlara müraciətlər edir, məktublar imzalayırlar və bu məsələ son dövrlərdə bir qədər də aktuallaşıb. Ədalətsiz mənzil bölgüsü probleminin aktuallaşmasına və gündəmə gətirilməsinə səbəb isə akademiyada Ramiz müəllimin prezident seçilməsindən sonra aşkarladığı qanunsuzluqlar, yerində olmayan adamları işdən uzaqlaşdırmasıdır. İnsanlar ümid edirlər ki, nəhayət, ədalət bərpa olunacaq, bu işdə saxtakarlıq edənlər ifşa olunacaqlar. Çox yaxşı olardı ki, bu adamlar haqqında vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə bağlı qanuni ölçü götürülsün".

İ.Orucov hesab edir ki, AMEA-nın yeni rəhbərliyi özündən əvvəlki rəhbərliyin mənzil bölgüsündə yol verdiyi saxtakarlığın və ədalətsizliyin aradan qaldırılması üçün müvafiq addımlar atacaq. O hətta bildirdi ki, mənzil almağa haqqı olan adamlar saxta yollarla mənzil almış adamların əllərindən həmin mənzillərin alınmasını da tələb etməkdə haqlıdırlar. Müsahibimizin fikrincə, işə ədalətli münasibət olsa, yataqxana sakinləri olan alimlər öz evlərinə qovuşa bilərlər.

***İradə SARIYEVA***

**Azərbaycan Respublikası yeraltı və yerüstü təbii sərvətlərlə zəngin olmaqla yanaşı, həmçinin, mövcud olan 12 iqlim qurşağından 9-na sahibdir. Bu o deməkdir ki, ölkəmizin yeraltı sərvətlərlə yanaşı (neft, qaz və s.), yerüstü resursları da (isti iqlim, külək, geotermal və s.) kifayət qədərdir.**

# Azərbaycan bərpa olunan enerji sektorunda yeni səhifə açır - ləğv olunmuş agentlik bərpa oluna bilərmi...



Bu mənbələr bərpaolunan enerji istehsalı üçün çox əhəmiyyətli bir başlanğıc nöqtəsidir, çünki Azərbaycanda bu mənbələrin əlverişli təbii şəraiti mövcuddur. Buna misal olaraq, Azərbaycanda orta hesabla 270 günəşli günün olması günəş enerjisinin istehsalı üçün kifayət qədər vacibdir, bir çox bölgələrdə olan təbii isti sular binaların isidilməsində vacib rol oynaya bilər, Abşeron yarımadasında olan külək ən vacib enerji mənbələrindən biridir və əlavə olaraq, ölkəmizin zəngin florası bioyanacaqların istehsalında mühüm mənbədir. Bərpaolunan enerji təbii mənbələrdən (günəş, külək, geotermal, biokütlə və s.) əldə olunan və yenidən bərpa oluna bilən, ətraf mühit üçün təmiz enerji növüdür.

Son vaxtlar Azərbaycanda bərpa olunan enerji mövzusu yenidən aktuallıq kəsb etməyə başlayıb. Bu günlərdə Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas bildirib ki, Avropa İttifaqı Azərbaycana bərpa olunan enerji mənbələri sahəsində ən yeni texnologiyalarla bağlı kömək etməyə hazırdır. O bildirib ki, Aİ ölkənin yeni uzunmüddətli enerji strategiyası üzərində Azərbaycanla birgə işləyir: "Azərbaycanda günəş və külək enerjisi ilə bağlı yaxşı potensial var. Bu potensialdan istifadə kommunal xidmət haqlarını azaltmağa imkan verəcək və ətraf mühiti daha təmiz edəcək. Biz Azərbaycana bərpa olunan enerji mənbələri sahəsində ən yeni texnologiyalarla bağlı kömək etməyə hazırıq".

K.Yankauskas qeyd edib ki, 2020-ci ildə Aİ və Azərbaycan bir sıra şəhər və bələdiyyələrin enerji səmərəliliyinin yüksəldilməsi proqramları üzrə əməkdaşlığı genişləndirəcək: "Yeni Avropa Komissiyasının əsas məqsədlərindən biri "Yaşıl saziş"in qəbul olunması üzrə iş olub. Biz qarşımıza 2050-ci ilədək Avropanı iqlim baxımından dünyada ilk neytral qitəyə çevirmək məqsədi qoymuşuq. Bizə bu məsələdə tərəfdarlarımızın köməyi lazımdır, bu, hamımız üçün vacibdir".

Bundan əlavə, Prezident İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin idarə heyətinin sədri Mohammad Abunayyanı və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin icraçı direktoru Mohammed Jameel Al Ramahini qəbul edərkən xüsusilə bərpa olunan enerji resursları sektorunda aparıcı şirkətlər olan "ACWA Power" şirkəti və "Masdar" şirkəti ilə imzalanmış çox mühüm İcra Müqaviləsi münasibətilə təbrik edib. Prezident bildirib ki, bu müqavilə Azərbaycanda enerji layihələrinin inkişafında yeni səhifə açacaq: "Çünki bərpa olunan enerji bu gün bizim üçün enerji sektorunda prioritetlərdən biridir. Azərbaycan artıq özünün elektrik enerjisi ehtiyaclarını təmin edir və həm də elektrik enerjisi ixrac edir. Lakin bizim hədəfimiz bərpa olunan enerji sektoruna investorlar cəlb etməkdir və bu İcra Müqaviləsinin əhəmiyyəti ondan ibarətdir ki, külək və günəş elektrik stansiyaları investorların vəsaiti hesabına tikiləcək. Beləliklə, siz Azərbaycanda işləməyə maraq göstərirsiniz. Biz bunu ölkəmizə, gələcəyimizə olan etimad hesab edirik. Çünki bu çox böyük investisiyadır. Mənə məlumat verildi ki, bu gün İcra Müqaviləsinin imzalanmasından sonra digər müqavilələrin hazırlanması üçün bir qədər vaxt var və ümidvarıq ki, bu il biz günəş və külək elektrik stansiyalarının təməlqoyma mərasimində iştirak edəcəyik. Bu bizim üçün çox mühüm layihədir".

Prezident bildirib ki, iki şirkətin ölkəmizə yatıracağı investisiya yüz milyonlarla dollar məbləğində olacaq: "Elektrik enerjisinin ümumi həcmi 440 meqavat olacaq. Bu, həqiqətən, Azərbaycanda bərpa olunan enerji baxımından böyük dəyişiklik olacaq. Həmçinin, şadam ki, bu layihələrdə sizin şirkətləriniz tərəfdaş olaraq seçiliblər. Hesab edirəm ki, bu, gözlənilməz deyil. Çünki mənə məlumat verilib ki, "ACWA Power"in, ümumilikdə, 30 min meqavatdan çox elektrik enerjisi var və bərpa olunan enerji sahəsində də 8 min meqavat elektrik enerjisi hasil edir. "Masdar" 4 min meqavat bərpa olunan elektrik enerjisi istehsal edir. Beləliklə, siz bu sahədə çox təcrübəli və aparıcı şirkətlərsiniz. Buna görə də sizi görməkdən çox məmnunam. Əminəm ki, bizim əməkdaşlığımız uzunmüddətli olacaq, bütün layihələr və texniki məsələlər vaxtında həll ediləcək".

Göründüyü kimi, Azərbaycan bərpa olunan enerji resurslarının istehsalı ilə bağlı yeni mərhələyə qədəm qoyur. Ölkəmizdə Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi fəaliyyət göstərib. 2019-cu ilin əvvəlində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı imzalanan fərmana əsasən, bir sıra dövlət qurumları ilə yanaşı, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin fəaliyyətinə xitam verilib. Maraqlıdır, həmin qurumun bazasında hansısa fəaliyyət göstərilirmi? Çünki ölkəmizin bu sahədə atdığı addımlar və bərpa olunan enerji sahəsinə qoyulan külli miqdarda xarici investisiya bu sahədə bir məsuliyyətli dövlət qurumunun olmasını zəruri edir. Ləğv olunan qurumun taleyi ilə maraqlanmaq üçün onun ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri olmuş jurnalist Ülkər Musazadə ilə əlaqə saxladıq. O, qəzetimizə açıqlamasında bildirdi ki, hazırda ölkədə deyil, xaricdə yaşayır: "Ləğv olunan qurumun bazasında heç bir dövlət təsisatı yaradılmayıb. Amma, bildiyim qədər, "Alternativ Enerji" adlı MMC fəaliyyət göstərir və əvvəlki dövlət qurumuna aid bir çox işin görülməsilə onlar məşğuldur. MMC-nin rəhbəri Aqşin Bəkirzadədir. Əlavə heç nə deyə bilmərəm".

Biz internet üzərində araşdırma apardıq və müəyyən etdik ki, sözügedən MMC-nin mətbuat xidmətinin rəhbəri Tural Rüstəmovdur. Onunla əlaqə yarada bildik. Tural müəllim qəzetimizə açıqlamasında bildirdi ki, ləğv olunmuş qurumun bazasında onlar fəaliyyət göstərirlər: "Alternativ və bərpa olunan enerji sahəsində baş verən son proseslərin bizimlə əlaqəsi yoxdur. Bununla Energetika Nazirliyi məşğul olur".

Göründüyü kimi, ölkəmizdə bərpa olunan enerji sahəsində yeni səhifə açılır, ancaq bu sahəni konkret kurasiya edən dövlət qurumu yoxdur. İndiki halda, buna böyük ehtiyacın olduğu görünür və ləğv edilmiş dövlət qurumunun yenidən bərpası zərurəti yaranır.

***Məhəmmədəli QƏRİBLİ***

**Ötən il 831 nəfər könüllü olaraq Avropadan Azərbaycana qayıdıb. Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) yaydığı məlumata görə, BMqT-nin Könüllü Qayıdışa Yardım və Reinteqrasiya layihələri çərçivəsində 2019-cu il ərzində Azərbaycan vətəndaşı olan 831 nəfərin mənşə ölkəsinə könüllü qayıdışı təmin olunub.**

# Avropadan könüllü qayıdan azərbaycanlılar dalğası - prosesin kökləri...

## *Vüqar Bayramov: "Ölkə inkişaf etdikcə, soydaşlarımız geri qayıtmağa meyl edirlər"*



Könüllü geri qayıdanların 460 nəfəri Almaniyanın, 264 nəfəri Niderlandın, 27 nəfəri Latviyanın, 16 nəfəri Türkiyənin, 13 nəfəri Avstriyanın, 10 nəfəri Gürcüstanın, 9 nəfəri Belçikanın, 8 nəfəri Litvanın, 7 nəfəri Polşanın, 6 nəfəri İsveçrənin, 4 nəfəri Macarıstanın, 3 nəfəri Finlandiyanın, 2 nəfəri İrlandiyanın, 1 nəfəri Çexiyanın və 1 nəfəri Bosniya və Herseqovinanın payına düşüb.

Diqqətçəkən məqamlardan biri də odur ki, əsasən Qərbi Avropa ölkələrindən Azərbaycana qayıdanlar üstünlük təşkil edirlər. Hansı ki, bir vaxtlar həmin ölkələrə Azərbaycandan getmək istəyənlər çox idi. İndi isə gedənlərin könüllü olaraq geri qayıtmaları prosesi müşahidə edilir. Təkcə bir ildə 831 nəfərin geri qayıtması kiçik rəqəm deyil.

Maraqlıdır, bunun mahiyyəti nədir və sözügedən prosesin kökündə nə dayanır?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Vüqar Bayramovun sözlərinə görə, azərbaycanlıların könüllü şəkildə Avropadan geri qayıtmaları bir sıra amillərlə bağlıdır: "Əvvəla insanların könüllü şəkildə vətənə qayıtması yaxşı haldır. Çünki, nəticə etibarilə, apardığımız monitorinqlər göstərir ki, qayıdanların bir qismi heç də Avropada sığınacaq ala bilmədikləri üçün geri qayıtmır. Sadəcə, müəyyən

## *"Avropada miqrantlara münasibət əvvəlki kimi deyil"*

müddət həmin ölkələrdə miqrant kimi və yaxud da digər formada yaşadıqdan sonra yenidən Azərbaycana qayıtmaq barədə qərar verirlər. Təbii ki, bunun fərqli səbəbləri də var. İqtisadi və digər amillərin bunda rolu müxtəlif formadadır. Bəziləri Azərbaycanda öz işlərini qura biliblər. Nəzərə almaq lazımdır ki, Azərbaycandan gedən soydaşlarımızın bir qismi, yumşaq desək, vətən üçün darıxırlar. Ona görə də müəyyən müddətdən sonra geri qayıtmaq barədə düşünürlər. Ona görə də azərbaycanlıların bir qisminin könüllü şəkildə geri qayıtması müşahidə edilir. Ölkə inkişaf etdikcə, soydaşlarımız geri qayıtmağa meyl edirlər. İqtisadiyyatın inkişafı yeni iş yerləri deməkdir.

Xüsusən də ölkədə qeyri-neft sektoru inkişaf etdikcə, yeni iş yerlərinin yaranması imkanları artır. Ona görə də kənarda yaşayan azərbaycanlılar geri qayıtmağa üstünlük verirlər. Başqa bir tərəfdən, Avropada miqrantlara münasibət əvvəlki kimi deyil. Qanunlar sərtləşdirilib, əvvəlki kimi miqrantlar üçün geniş imkanlar yoxdur. Hesab edirəm ki, bu kimi amillərin də prosesə təsiri var".

***Vidadi ORDAHALLI***

# Yeni sığorta dələduzluğu - bəzi şirkətlər ipoteka mənzilləri də sığorta ödənişinə cəlb etmək istəyir...

**Məlum olduğu kimi, bu ilin yanvar ayının 1-dən daşınmaz əmlakın icbari sığortası barəsində qanuna edilən düzəliş qəbul edilib. Qanuna görə, 2020-ci il yanvarın 1-dən etibarən Bakı şəhərində daşınmaz əmlaka sahib olanlar 50 manat illik sığorta haqqı ödəyərək əmlaklarını sığorta etdirməlidirlər.**

*"İpoteka altında olan və banklar tərəfindən onsuz da məcburi sığortalanan mənzillərin ipotekası bitmədiyi müddətdə..."*

**Rövşən Ağayev:** *"İpoteka ilə alınan mənzilləri banklar risqdən qaçmaq üçün məcburi sığortaladır"*



Sığorta haqqı Sumqayıt, Gəncə, Naxçıvan şəhərlərində 40 manat, digər yaşayış məntəqələri və bölgələrdə isə 30 manatdır. İcbari sığorta müqaviləsinin bağlanmamasına görə fiziki şəxslərə 30 manat, vəzifəli şəxslərə 80 manat, hüquqi şəxslərə isə 200 manat cərimə nəzərdə tutulub. Daşınmaz əmlakın icbari sığortasına nəzarət mexanizmi işə düşəndə İcbari Sığorta Bürosunun sistemində "kupça"sı olanlar görünəcək. Əgər mənzilin sığortası yoxdursa, həmin şəxsin e-mailinə və yaxud telefonuna mesaj göndəriləcək.

Bu xəbər gündəmə gələn gündən etibarən sığorta şirkətləri aktiv fəaliyyətə başlayıblar. Bir-bir mənzillərə gedib həmin evi sığorta etdirməyə hazır olduqlarını bildirirlər. Hətta ipotekada olan evlərin belə sığorta olunmasının vacibliyini ev yiyəsini bildirirlər. Əks halda mənzil sahibinin cərimələnəcəyini iddia edirlər.

Ancaq ipoteka ilə alınan mənzillər bank tərəfindən avtomatik olaraq sığortalanır. Sığorta şirkətləri iddia edirlər ki, bank ipoteka ilə alınan mənzili könüllü sığortaya cəlb edir, ancaq qanunla evlər icbari sığorta olunmalıdır.

İqtisadçı Rövşən Ağayev bildirdi ki, ipoteka ilə alınan mənzilləri banklar risqdən qaçmaq üçün məcburi sığortaladır. Vətəndaş hər il mənzilin dəyərinin 0,6-0,7%-i qədər ipotekaya götürdüyü mənzilə görə sığorta haqqı ödəyir: "İndi isə sığorta şirkətləri vətəndaşa deyir ki, o sığortanın əmlakın icbari sığortasına aidiyyəti yoxdur. Ona görə də qanunda göstərilməlidir ki, ipoteka altında olan və sığortalanan əmlak təkrarən sığortaya cəlb edilə bilməz. Mülki qanunvericiliyə görə, vətəndaşdan eyni əməliyyata görə yalnız bir dəfə vergi, icbari ödəniş və ya xidmət haqqı alına bilər. İpoteka altında olan və banklar tərəfindən onsuz da məcburi sığortalanan mənzillərin ipotekası bitmədiyi müddətdə mülkiyyət tam olaraq vətəndaşın sayılmır. Sahibliyi tam ötürülməmiş mülkiyyətə görə icbari sığorta absurddur. Çünki vətəndaş onun üzərində əməliyyat apara bilmir, nə girov qoya, nə sata, nə də bağışlaya bilir. Mülkiyyət hüququnun reallaşması üçün istənilən subyektin ona sahiblik və sərbəst sərəncamverme hüququ olmalıdır. İpoteka sərəncamvermə hüququnu məhdudlaşdıran hüquqi rejimdir. Buna görə sahiblik də həmin rejim bitənə qədər formal xarakter daşıyır. İpoteka ilə alınmış mənzilə ziyan dəyirsə, sığorta hesabına həmin ziyan aradan qaldırılır və borclu yenə də öz borcunu ödəməyə davam edir".

***Günel CƏLİLOVA***

# Tikinti şirkətləri sadələşdirilmiş vergi ödəyiciliyindən çıxır - mənzillərin qiyməti məsələsi gündəmdə...

**Məlum olduğu kimi, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 29 noyabr 2019-cu il tarixdə qəbul edilmiş "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Qanununda bina tikintisi fəaliyyətinin vergiyə cəlb edilməsi ilə bağlı Vergi Məcəlləsinə bəzi dəyişikliklər edilib.**




**Rəşad Həsənov:** *"Belə olan halda, şirkətlər məcbur olaraq uçotu daha da dəqiqləşdirəcəklər"*

Vergilər Nazirliyinin yaydığı məluatda qeyd olunurdu ki, 1 yanvar 2020-ci il tarixdən etibarən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərin sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququnun ləğv edilməsi və həmin şəxslər tərəfindən vergi öhdəliklərinin vahid metodla - ƏDV və mənfəət vergisinin ödəyicisi kimi yerinə yetirilməsi nəzərdə tutulur.

Maraqlıdır, bu qərar tikinti sektoruna və daşınmaz əmlak bazarında satış qiymətinə necə təsir edəcək?

İqtisadçı-ekspert Rəşad Həsənov bildirdi ki, bu qərar gizli iqtisadiyyatın əhatə dairəsini kiçildəcək: "Ötən ilin sonuna qədər Azərbaycanda fəaliyyət göstərən tikinti şirkətlərinin sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ var idi. Ümumiyyətlə, sadələşdirilmiş vergi növünün əhatə dairəsinin azaldılması istiqamətində son iki ildə müəyyən addımlar atılır. 2018-ci ilin dekabr ayında Vergi Məcəlləsinə dəyişiklik edilərkən bu istiqamətdə ciddi addımlar atılıb. Hazırda bir sıra fəaliyyət istiqamətləri üzrə sadələşdirilmiş vergi növü ləğv edilib. 2019-cu ildə məcəlləyə dəyişiklik edilən zaman sadələşdirilmiş vergi növünün azaldılması əsas hədəflərdən biri idi. İqtisadiyyatın əhəmiyyətli sahələrindən biri olan tikinti sektorunda fəaliyyət göstərən şirkətlərin artıq sadələşdirilmiş vergi hüququ ləğv edilib. Qeyd edim ki, hansı sferada fəaliyyət göstərməsindən asılı olmayaraq, sadələşdirilmiş vergi ödəyiciləri dəyər zəncirinin digər halqalarından əldə etdikləri mal və xidmətlərin sənədlərini toplamaq və aidiyyəti qurumlara təqdim etmək məcburiyyətində deyil. Çünki bu şirkətlər müxtəlif formada sadələşdirilmiş vergi ödəyirlər.

*"...şirkətlərin öz xərclərini sübut etməsi zərurəti yaradır"*

Məsələn, bəziləri dövriyyənin müəyyən faizi qədər vergi ödəyir ki, onların mal və xidmətlərin uçotunun aparılmasına ehtiyac olmur. Bəziləri isə, ümumiyyətlə, heç bir göstəriciyə görə deyil, sadəcə olaraq aylıq müəyyən məbləğdə vergi ödəyirlər. Tikinti şirkətləri də tikinti sahəsinə uyğun olaraq vergi ödəyirdilər. Belə olduğu təqdirdə şirkətlər aralıq istehlakın uçotunu aparmaqda maraqlı olmurlar.

Bu isə, öz növbəsində, illeqal və gizli iqtisadiyyatın formalaşmasına gətirib çıxarır. Tikinti şirkətlərinin bu hüququnun ləğv edilməsi, yeni onların bundan sonrakı dövrdə əlavə dəyər vergisi ödəyicisi olması şirkətlərin öz xərclərini sübut etməsi zərurəti yaradır. Əks halda, onların dövriyyələri gəlirləri kimi görünəcək.

**Bu da şirkətlərin mənfəət və digər xərclərinin ciddi şəkildə artmasına gətirib çıxaracaq. Belə olan halda, şirkətlər məcbur olaraq uçotu daha da dəqiqləşdirəcəklər. Uçotun dəqiqləşdirilməsi isə dəyər zəncirinin digər halqalarında sahibkarlıq fəaliyyəti göstərən subyektlərin öz fəaliyyətini leqallaşdırmasına gətirib çıxaracaq. Beləliklə, gizli iqtisadiyyatın əhatə dairəsi müəyyən qədər kiçiləcək".**

***Günel CƏLİLOVA***

**Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) bəzi elmi-tədqiqat institutlarının direktorlarının tutduqları vəzifədən uzaqlaşdırılacağı haqqında proqnozlar özünü doğrultmaqdadır. Belə ki, yanvarın 9-da AMEA Rəyasət Heyətinin növbəti iclası keçiriləcək burada bir sıra məsələlərə baxılıb, o cümlədən də bəzi institutlara təyinatlar edilib, bəzilərinin direktorları isə tutduqları vəzifədən uzaqlaşdırılıblar.**

# Akademiyanın institut direktorları da "islah olunmağa" başladı

AMEA-nın Rəyasət Heyətinin qərarı ilə fizika üzrə fəlsəfə doktoru Elman Yusifov AMEA Zoologiya İnstitutunun direktoru vəzifəsindən azad edilib. İnstitutun direktoru vəzifəsinin icrası müvəqqəti olaraq elmi işlər üzrə direktor müavini, biologiya elmləri doktoru Elşad Əhmədova həvalə edilib.

Qeyd edək ki, Zoologiya İnstitutunun on illər ən çox fəaliyyətsizlikdə ittiham edilən elmi-tədqiqat institutu olduğu bildirilir və məlumatlara görə, bu institutun əməkdaşları çöl-tədqiqat işlərinə cəlb edilmirlər. Bundan əlavə, AMEA-nın Zoologiya İnstitutu keçən il Azərbaycanda mövcud olan çöl quşlarının adlarının dəyişdirilməsi ilə gündəmə gəlmişdi.

AMEA Rəyasət Heyətinin qərarı ilə yanvarın 9-da vəzifəsindən kənarlaşdırılan, fizika üzrə fəlsəfə doktoru Elman Yusifovla əlaqə saxlayıb ondan müsahibə götürdük.

**- Elman müəllim, Zoologiya İnstitutunun direktoru vəzifəsindən çıxarılmağınız sizin üçün gözlənilən idimi? Bu qərarı necə qarşıladınız?**

- Bu qərarı çox normal qarşıladım. Bu mənim üçün gözlənilən idi. Mən ərizə yazdım və çox sağ olsun hörmətli Ramiz müəllim, ərizəmi qəbul etdi.

**- Ərizə yazmağınızın səbəbi nə ilə bağlı idi?**

- Bilirsiniz, elmi fəaliyyətim bir qədər axsayırdı. Çünki elmi fəaliyyətlə rəhbərlik, inzibati iş heç cür uyğunlaşmır. İnzibati vəzifə daha artıq diqqət, zaman tələb edir. Ona görə də elmi fəaliyyətə zaman qalmır. Doktorluq işim yarımçıqdır, onu bitirmək üçün direktor vəzifəsindən çıxmaq istəyimlə bağlı ərizə yazdım və vəzifədən azad edildim. Mənim yerimə də təyin edilən Elşad Əhmədov çox layiqli namizəddir, yaxşı kadrdır. Hesab edirəm ki, fəaliyyəti dövründə çox işlər görəcək. Mən də hazırda Zoologiya İnstitutunda qalıb çalışıram, fəaliyyətimi davam etdirirəm.

**- Elman müəllim, Zoologiya İnstitutunun direktoru vəzifəsində neçə il idi işləyirdiniz?**

- Dörd ilə yaxın idi ki, direktor vəzifəsində idim.

**- Elmi fəaliyyətinizin axsamasına direktorluğunuz mane olurdu?**

- 10 il idi ki, mənim doktorluq mövzum təsdiqlənib. Amma mən o işin ardınca gedə bilmirəm. Bizim sahə elədir ki, kabinetdə oturub yazmaq olmur, gərək elmi ekspedisiyalara, çöl işlərinə gedəsən, koordinatlar götürəsən, tədqiqatlar aparasan. Amma direktor vəzifəsi buna imkan vermirdi. Çünki hər zaman iclaslarda iştirak etmək, sənədlər imzalamaq lazım olur. Yəni rəhbərlik işi çox çətindir. Bizim institutun kollektivi çox böyükdür, burada 240-a yaxın işçi var və bu da elmi işlə məşğul olmağa yol vermirdi. İşdən çıxmaq mümkün deyildi, harasa getmək üçün gərək rəsmi müraciət edəsən, bütün bunlar direktor üçün maneələrdir. Bu sahədə məhdudiyyətlər var. Ona görə də elmi işimi bitirmək istəyirəm, elmi işlə məşğul olmaq mənim üçün daha maraqlıdır.

**Elman Yusifov:** *"Doktorluq işim yarımçıqdır, onu bitirmək üçün direktor vəzifəsindən çıxmaq istəyimlə bağlı ərizə yazdım və vəzifədən azad edildim"*



*"Elmi işlə məşğul olmaq mənim üçün daha maraqlıdır"*

**- "Azərbaycan Respublikasının Qırmızı Kitabı"nın III nəşrinin redaksiya heyətinin yeni tərkibi formalaşıb. Siz necə, həmin heyətdə varsınızmı?**

- "Qırmızı kitab"ın II nəşri çapdan çıxıb, indi isə III nəşrə hazırlıq gedir. Nazirlər Kabinetinin qərarı ilə hər 15-20 ildən bir bu kitab nəşr edilir. "Qırmızı kitab"ın III nəşrinin hazırlanmasında mən də iştirak edirəm. Burada daha dəqiq nəticələr göstərmək, CİS koordinatlarından istifadə etmək lazımdır. Bu iş AMEA-nın Zoologiya İnstitutu, Botanika İnstitutu və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəhbərliyi ilə həyata keçiriləcək.

**- "Azərbaycan Respublikasının Qırmızı Kitabı"nın vəziyyəti necədir? Elə bir heyvan, bitki növü varmı ki, onların adlarını bu kitabdan çıxarmaq mümkün olub?**

- Əlbəttə, bəzi növlər var ki, onları "Qırmızı kitab"dan çıxarmaq olar. Çünki onlar xüsusi mühafizə olunan təbiət ərazilərində qorunur, vəziyyətləri yaxşıdır. Bəzi növlər də var həddən artıq çoxalıb. Məsələn, oxlu kirpi. Bir sıra növlər də var ki, onların vəziyyəti təhlükə qarşısındadır, biz onları "Qırmızı kitab"ın III nəşrinə tövsiyə etmək istəyirik.

**- Konkret olaraq söhbət hansı növlərdən gedir? Təhlükəli vəziyyətdə olan canlılar hansılardır?**

- Məsələn, elə biri tibb zəlisidir. Bu dəqiqə "bum" yaranıb, qanuni-qanunsuz, həmin növ zəlilər aptekləra daşınır. Bu zəlilər də məhdud göllərdə olur, şirin su göllərində. İqlim dəyişməsi nəticəsində də həmin göllərin get-gedə həcmi azalır. Sahibkarlar müxtəlif yollarla zəliləri daşıyırlar. Belə problemlər var.

**- Zəli problemi doğrudan da aktualdır. İstənilən aptektdə rast gəlinir, amma mənşəyi bilinmir ki, haradan gətirilib, istifadə edilməsi düzgündür, yoxsa yox?**

- Ümumiyyətlə, indi çox yaxşı trendlər var. Mən işlədiyim mühitdə artıq bir neçə sahibkar süni şəkildə zəlini çoxaldır. Təkcə zəli deyil, hazırda göl qurbağasına da həvəs, maraq artıb.

**- Yəqin bu, göl qurbağalarının kulinariyada istifadə edilməsi ilə bağlıdır, yoxsa?**

- Bəli, bu gün restoranlarda göl qurbağasına böyük tələbat var. Göl qurbağalarından kulinariyada istifadə edilir. Hətta xarici ölkələrə də satılır. Biz bunu da araşdıracağıq. Təbii göllərdən istifadə ilə bağlı məhdudiyyətlər olanda sahibkarlar bunları süni şəkildə çoxaldırlar. Burada heç bir məhdudiyyət yoxdur, sahibkarlar istədikləri həcmdə süni şəraitdə yetişdirdikləri zəliləri, qurbağaları aparıb sata bilərlər. Bu, ölkə büdcəsinə, ümumdaxili məhsulun artmasına da, sahibkarlığın inkişafına, işsizliyin aradan qaldırılmasına çox böyük fayda verir. Amma təbiətə israfçı münasibət yaxşı hal deyil. Bəzi növlər var ki, biz onlar haqqında düşünürük. Bu, bir institutun işi deyil, burada bir neçə elmi qurum, institut iştirak etməlidir. Məsələn, fauna üzrə AMEA-nın Zoologiya İnstitutu bir tərəfdir, Bakı Dövlət Universitetinin uyğun kafedraları bir tərəfdir. Eləcə də Naxçıvan Bioresurslar İnstitutu və digər institutlar bu işləri birgə müzakirə edəcəklər.

**- Elman müəllim, sizin institut son dövrlər daha çox quşların adlarının dəyişdirilməsi məsələsi ilə gündəmə gəlmişdi. Doğrudanmı quşların adlarının dəyişdirilməsinə ehtiyac vardı?**

- Bu sensasiyanı bəzi media orqanları yaratmaq istəmişdi. Amma süni yolla ajiotaj yaratmaq yaxşı hal deyil. Quşların adlarının dəyişdirilməsinə gəlincə, biz quş adı dəyişən deyilik. Quşların adlarının dəyişdirilməsi məsələsi elmi terminologiyada olan uyğunsuzluqla əlaqədardır. Bir quşun adını bir alim bir cür, o biri alim başqa cür, bir başqa alim də tamam fərqli yazır. Biz bütün alimləri bir araya toplayıb qərara gəldik ki, quşları bir adla adlandıraq, bütün elmi ədəbiyyatlarda bu belə getsin.

Bilirəm, siz indi "maygülü"nü deyəcəksiniz. Biri "maygülü" yazır, biri batağan yazır, biri isə həmin quşun latınca adını Azərbaycan dilinə tərcümə edir, bu da çox zaman dilimizin qaydalarına uyğun gəlmir. Onlar istəyirlər orijinallığı saxlasınlar. Quşların adları elmi məqalələrdə eyni cür yazılmalıdır. Elmdə bir növün bir adı olmalıdır. Məqsəd bundan ibarətdir. Bu da konsensus variantında işlənib. Bəzi alimlər deyirlər bu belə olsun, başqası başqa cür olsun deyir, biz də orijinal adı yazıb mötərizədə digər variantları qeyd edirik. Bu özü də son söz deyil, bu, yazılandan, kitab çap olunandan sonra bu adlar elmdə işlənəcək, bir də yanlışlığa yol verilməyəcək. Hansı ad, hansı söz daha çox işlənsə, o söz də elmdə qalacaq, o biri söz isə tədricən təbii yolla itib gedəcək. Yəni söhbət bundan gedir. Yoxsa ki, bizim o qədər işimiz var, onları görməliyik. Bəzən bizim haqqımızda deyirlər ki, işləri qurtarıb, indi də quş adlarını dəyişirlər. Bu ədalətsizlikdir və alimlərin zəhmətini yerə vurmaqdır. Bu da yaxşı hal deyil.

***İradə SARIYEVA***

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkədə gənclərin həyat tərzini tənqid edib. O qeyd edib ki, vətəndaş nikahları, boşanmalar artır. Ərdoğan nikahdankənar münasibətlərin Türkiyə dəyərlərinə zidd olduğunu bildirib: "Ölkəmizdə heç vaxt ailə qurmayanların sayı artır.**

# Azərbaycan və Türkiyə gənclərinin oxşar problemləri - hər iki halda təhlükə eyni mənbədən gəlir...

***Əhməd Qəşəmoğlu:*** *"Hər iki ölkənin ailə dəyərlərinə beynəlxalq səviyyədə təsir daha çoxdur"*



Nikahdankənar həyat mediada təbliğ olunur. Nikahdankənar münasibətlər bizim dəyərlərimizə uyğun deyil. Yeni nəsil oxumaqdan çox müşahidədən təsirlənir. Ailə institutu dağıldıqda əhalinin sayı azalır. Bir çox Qərb toplumu ailə institutu olmadığı üçün gələcəkdə yer üzündən silinmə təhlükəsi ilə üz-üzə qala bilər. Türkiyə də eyni təhdidlə üzləşib. Gənclərimiz evlənmir, rəqəm yuxarı çıxır. Çoxusu 30 yaşdan sonra evlənir, ya da evdə qalır. Heç evlənməyənlərin sayı da artır. Nikah edib çoxalmalıyıq, nikahdankənar münasibətlər bizim dəyərlərimizdə yoxdur".

Təxminən Azərbaycanda da oxşar vəziyyət mövcuddur. Azərbaycanda uşağın dünyaya gəlmə yolu evlilikdən keçir. Yəni adətlərə uyğun elçilik, nişan, nikah mərasimi, daha sonra toy mərasimi keçirilir. Ancaq son illər, faktiki, bütün bu mərhələləri keçməyənlər də var və bunların sayında artım tendensiyası müşahidə olunur. Gənclər arasında gec evlənənlərin sayı artır. Nikahdankənar münasibətlərə maraq artıb. Ailə dəyərlərində deqradasiya prosesləri genişlənir. Digər tərəfdən, təkcə 2016-cı ildə Azərbaycanda 26 mindən çox uşağı rəsmi nikahda olmayan qadınlar dünyaya gətirib. 2017-ci illə müqayisədə 2018-ci ildə bu rəqəmdə müəyyən azalma var, amma problem qalmaqdadır. Belə ki, 2018-ci ildə belə münasibətlərdən doğulan uşaqların sayı 20 min 716 olub. 2019-cu ilin yanvar-oktyabr aylarında 14281 boşanma halı qeydə alınıb. 2018-ci illə müqayisədə boşanmaların sayı 1,5%-dən 1,7%-ə qədər artıb.

Bütün bunlar müəyyən sualların yaranmasına səbəb olur. Yəni bu neqativ şeylər bizdən Türkiyəyə, yoxsa qardaş ölkədən Azərbaycana transfer edir? Problemin oxşar olmasını nəzərə alsaq, sözügedən neqativ şeyləri bir-birimizə ötürürük, yoxsa hər iki ölkəyə bu, xaricdən ötürülür?

Məsələyə münasibət bildirən sosioloq Əhməd Qəşəmoğlunun sözlərinə görə, bu kimi neqativ şeylər əsasən xaricdən hər iki ölkəyə sirayət edir: "Ancaq bunun başqa səbəbləri də var. Məsələ ondadır ki, dünyada sürətli qloballaşma prosesi gedir. Qloballaşma prosesi gedəndə cəmiyyətlər sürətlə mürəkkəbləşir. Cəmiyyət sürətlə mürəkkəbləşəndə orada artıq ictimai nəzarət mexanizminin təsir gücü azalır. Xalqın adət-ənənəsinin təsir gücü zəifləyir. Cəmiyyət birdən-birə mürəkkəbləşəndə adət-ənənə öz gücünü göstərə bilmir. Başqa bir tərəfdən, qloballaşmanın sürətlənməsi ilə əlaqədar informasiya məkanı dəyişir, cəmiyyət müxtəlif informasiyalara məruz qalır. Bunun özü də neqativ tendensiyaların yayılmasına şərait yaradır. Bir də güclü təsir edən faktorlardan biri dəyərlərə olan münasibətdir. Hər hansı bir insanın davranışına təsir edən 4 mühüm amil var. Birincisi insanın ruhi-mənəvi potensialı, ikincisi mühit, üçüncüsü informasiya, dördüncü də dəyərlər. Nəzərə almaq lazımdır ki, Azərbaycanla Türkiyə bir-birinə yaxındır. Adət-ənənələrimiz bənzərdir. Hər iki ölkənin mədəniyyətləri ailə institutları üzərindədir. Biz Türkiyə ilə sıx əlaqədəyik. Bəzi məsələlər var ki, bunlar bir-birinə təsir edir. Ancaq hər iki ölkənin ailə dəyərlərinə beynəlxalq səviyyədə təsir daha çoxdur. Müsəlman ölkələrində xüsusi texnologiyalar həyata keçirilir. Bu texnologiyaların həyata keçirilməsi də ailə institutunun dağılmasına yönəlib. Çünki hər hansı bir ölkədə supergüclər öz mövqeyini möhkəmləndirmək üçün, ilk növbədə, mənəviyyat, mədəniyyət sistemini dağıdırlar. O zaman ora müdaxilə etmək daha asan olur. İndi Azərbaycanda hər evlənən 100 nəfərdən 30-u boşanır. Hesab edirəm ki, bu çox böyük faciədir. Reallıq ondan ibarətdir ki, qloballaşmanın tempinə görə öz işlərimizi ölkə daxilində qura bilmirik. Bax, problem həm də bundan irəli gəlir. Müvafiq qurumlar bu haqda düşünməlidirlər".

*"Qloballaşmanın sürətlənməsi ilə əlaqədar informasiya məkanı dəyişir, cəmiyyət müxtəlif informasiyaların təsirinə məruz qalır"*

***Vidadi ORDAHALLI***

**Son dövlər əcnəbilərin Azərbaycan dilini öyrənməyə maraqları çoxalıb. Dilimizi öyrənmək üçün onlar müxtəlif vasitələrdən istifadə etmək istəyirlər. Lakin çox təəssüf ki, onların Azərbaycan dilini internet vasitəsilə öyrənməsi ciddi problemdir.**

# AMEA-dan maraqlı təşəbbüs - dilimizi öyrənən əcnəbilər üçün tədris vəsaiti hazırlanır

***Möhsün Nağısoylu:*** *"Vəsaitin internetdə yerləşdirilməsi də nəzərdə tutulub ki, əcnəbilər internet vasitəsilə də bu vəsaitdən yararlansınlar"*

***Mayıl Əsgərov:*** *"Bu tədris vəsaiti imkan verəcək ki, əcnəbilər Azərbaycan dilini sərbəst şəkildə öyrənsinlər"*



Çünki ana dilimizin qayda-qanunları, sözləri internet resurslarında tam olaraq yerləşdirilməyib. Bu da dilimizin əcnəbilər tərəfindən öyrənilməsinə əngəl olur. Halbuki, istənilən əcnəbi dili internet vasitəsilə öyrənmək çox asandır, amma Azərbaycan dilinin hələ də internet resursları yaradılmayıb. Bunun həyata keçirilməsinə Azərbaycan dili haqqında qəbul edilən Dövlət Proqramı da, digər qanunvericilik aktları da imkan verir, sadəcə, əməli iş görülmür.

Qeyd edək ki, Sovet dövründə, eləcə də ondan sonrakı mərhələlərdə Azərbaycan dilini öyrənmək istəyən əcnəbilər üçün tərtib edilən nəşrlər də onların bu dili öyrənməsinə yetərincə imkan vermirdi.

Bu gün isə əcnəbilərin Azərbaycan dilini öyrənməsi üçün yeni tədris vəsaitinin birinci hissəsi hazırlanıb, ikinci hissə isə hazırlıq prosesindədir. Bunu bizimlə söhbətində Azərbaycan Milli Elmlər Akademiyası Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu bildirdi. O qeyd etdi ki, Azərbaycan dilini öyrənən xaricilər üçün tədris vəsaitlərinin hazırlanması prosesi başlanıb, nəşrin birinci hissəsi 2019-cu ildə işıq üzü görüb. M.Nağısoylu vurğuladı ki, Azərbaycan dilini öyrənən xarici vətəndaşlar üçün "Linqvo-psixoloji vəhdət nəzəriyyəsinin tətbiqi ilə tədris vəsaitləri dəstinin hazırlanması" layihəsi çərçivəsində artıq işlər başlanıb. Vəsait institutun şöbə müdiri, dosent Mayıl Əsgərov tərəfindən hazırlanıb və hələlik rus, ingilis dillərini əhatə edib. O qeyd etdi ki, vəsaitlərin hazırlanması 2021-ci ilədək mərhələli şəkildə yerinə yetiriləcək. M.Nağısoylunun sözlərinə görə, bu vəsait Azərbaycan dilini öyrənmək istəyən əcnəbilərin maraqlarını tam olaraq təmin edəcək. "Artıq bu vəsaitin birinci hissəsi hazırlanıb, lakin biz hələ onun təqdimatını keçirməmişik. İkinci hissəsi də hazırlanacaq. Bu olduqca əhəmiyyətli bir vəsaitdir. Bizim institutun müvafiq şöbəsinin müdiri Mayıl Əsgərov tərəfindən hazırlanıb. Vəsaitin internetdə yerləşdirilməsi də nəzərdə tutulub ki, əcnəbilər internet vasitəsilə də bu vəsaitdən yararlansınlar. Biz onu o şəkildə yerləşdirməliyik ki, əcnəbilər ondan istifadə edə bilsinlər" - deyə M.Nağısoylu bildirdi.

Vəsaitin müəllifi, AMEA-nın Dilçilik İnstitutunun sosiolinqvistika və psixolinqvistika şöbəsinin müdiri, dosent Mayıl Əsgərov bizimlə söhbətində bildirdi ki, vəsaitin hazırlanması tamamilə yeni qaydalara uyğundur. "Bu vəsaitin birinci hissəsi hazırdır. Hələlik rus və ingilis dillərindədir. Bu tədris vəsaiti imkan verəcək ki, əcnəbilər Azərbaycan dilini sərbəst şəkildə öyrənsinlər. Bu vəsait Sovet dövründə çap olunan vəsaitdən tamamilə fərqlənir. Vəsaitdə hər şəkilçi, hər ədat fərqli rənglərdə işarələnib. Fikirləşirik ki, bu vəsaiti internetdə də yerləşdirək, canlı şəkildə, diktor səsilə təqdim edək ki, əcnəbilər Azərbaycan dilini daha rahat şəkildə öyrənsinlər" - deyə müəllif qeyd etdi.

***İradə SARIYEVA***

# Faciəli yanğın Bakıdakı əcnəbi tələbələrin mənzil-məişət sferasında qlobal bir problemi gündəmə gətirdi...

**Bakının Səbail rayonu, Bayıl qəsəbəsində baş vermiş bədbəxt hadisə zamanı ölən əcnəbi tələbələrin şəxsiyyəti məlum olub. Bunlar 1997-ci il təvəllüdlü Tarukki Amaya, 1995-ci il təvəllüdlü Tausi Jayavodi və 1999-cu il təvəllüdlü Mališi Tayukidir.**

## *"Əcnəbilər üçün isə bu, prioritet təşkil etməlidir"*

## *Məhərrəm Zülfüqarlı: "...rayondan gələn tələbələrimizə də bu şəraiti yaratmalıyıq"*

Şri-Lanka vətəndaşları olan qızların Bakıda fəaliyyət göstərən Qərbi Xəzər Universitetinin tələbələri olduğu bildirilir. Tələbə qızlar iki ay imiş ki, həmin mənzildə məskunlaşıblar. Onların meyitləri müayinə olunması üçün məhkəmə tibb ekspertizasına təqdim edilib.

Qeyd edək ki, yanğını ilk olaraq qonşulardan biri görüb və həmin şəxs tələbə qızların qaldığı mənzilin pəncərəsini sındıraraq onlara kömək etmək istəyib. Ancaq artıq gec olub, qızlar yatmış vəziyyətdə zəhərlənərək ölüblər. Bədbəxt hadisə Xanlar küçəsi 60, mənzil 9 ünvanında baş verib.

Fövqəladə Hallar Nazirliyindən verilən məlumata görə, Bakı şəhərinin Səbail rayonunda ikimərtəbəli yaşayış binasının birinci mərtəbəsində ümumi sahəsi 36 kv.m. olan 1 otaqlı mənzildə 1 ədəd elektrik ötürücüsü və yataq dəsti qismən yanıb. Yanğının kəşfiyyatı zamanı tüstüdən boğulmuş 3 nəfərin meyiti yanğınsöndürənlər tərəfindən aşkar edilib. Mənzil yanğından mühafizə olunub. Yanğından mühafizə bölmələri tərəfindən söndürülüb.

Hadisə ilə əlaqədar müvafiq qurumlar tərəfindən təhqiqat aparılır.

Hadisə yerindən təqdim olunan fotolordan görünür ki, tələbə qızlar çox acınacaqlı şəraiti olan bir evdə yaşayıblar. Yəqin ki, bu da həmin evin kirayə haqqının ucuz olması ilə bağlı olub. Belə hadisələrin baş verməsi ölkəmizin imicinə də ziyan edir. Göründüyü kimi, həmin qızlar özəl üniversitetlərdən birinin tələbələri olub və əminliklə demək olar ki, onlar təhsilləri üçün üniversitetə pul da ödəyiblər. Hər halda, əcnəbi tələbə qəbul edən universitetlər həmin şəxsləri yataqxana ilə təmin etsələr, belə xoşagəlməz hadisələr yaşanmaz. Ümumiyyətlə, ölkəmizdə əcnəbi tələbə qəbul edən təhsil müəssisələrinin tələbələrinin harada yaşaması ilə bağlı öhdəliyinin olması zəruridirmi?




Professor Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, baş verən hadisə çox üzücüdür: "Biz bu məsələdə, ən azından, qardaş Türkiyənin praktikasından istifadə edə bilərik. Orada bütün tələbələr üçün ucuz qiymətə "tələbə yurdları" deyilən yaşayış yerləri təşkil olunur. Hətta bəzilərində tələbələr yeməklə də təmin olunurlar. Bunu universitetlərin çoxu öz daxili hesablarına edir. Tələbə cüzi bir məbləği ödəməklə yaxşı şəraitdə olan yataqxanada qalır. Buna Azərbaycanda böyük ehtiyac var. Yalnız əcnəbilərə deyil, rayondan gələn tələbələrimizə də bu şəraiti yaratmalıyıq. Əcnəbilər üçün isə bu, prioritet təşkil etməlidir. Bunun təhsilin keyfiyyətinə və hətta dövlətimizin büdcəsinə də xeyri olacaq.

Çünki yaxşı şəraiti görəndə ölkəmizə daha çox tələbə təhsil almağa gələcək. Təəssüflər olsun ki, bizim universitet rektorları buna ciddi yanaşmırlar. Özü də indiki ali məktəblərin belə şəraiti yaratmağa imkanları da yetərincədir. Bilirik ki, ali məktəblərin çoxunda ödənişli təhsil var.

**Sovet dövründə Bakıda əcnəbi tələbələr təhsil alırdılar. Onlar üçün ayrıca yataqxanalar fəaliyyət göstərirdi. Bunu mütləq nəzərə almalıyıq. Tələbələr ucuz olsun deyə, məcbur olub şəraiti olmayan evlərdə yaşayırlar. Nəticədə belə hallar ortaya çıxır və bunun da ölkəmizin imicinə böyük zərəri var".**

*Məhəmmədəli QƏRİBLİ*

# Xırdalanda kanalizasiya sularının Ceyranbatan su anbarına axıdıldığı xəbəri yayıldı...

**Bir neçə gün əvvəl Xırdalanda Həsən Əliyevlə Heydər Əliyev küçələrinin kəsişməsindəki dairəvi yolda daşan kanalizasiya sularının Ceyranbatan su anbarına axıdıldığı barədə məlumat yayılmışdı.**

## *"Axıntının Ceyranbatan su anbarına heç bir qarışacağı yoxdur, həmin sahildə bir gölməçə var, bu axıntı su da ora axır"*

## *Anar Cəbrayıllı: "Yuxarı hissələrdə çəkilən kanalizasiya xətlərinin sistemə tam qoşulması təmin olunmadığı üçün baxış quyusunda qaynama var"*

Həmin ərazidə yaşayanlar bildirirlər ki, H.Əliyev küçəsi 36 ünvanında kanalizasiya suları, sözün həqiqi mənasında, bulaq kimi "aşıb-daşır". Bu hal həmin ərazidən gedib-gələnlər üçün çətinlik yaradır. Yola yığılan çirkab sular, ilk növbədə, üfunət iyinin ətrafa yayılmasına səbəb olur. Bununla yanaşı, həmin ərazidə antisanitariya şəraitinin qeydə alınması bir sıra xəstəliklərin yaranmasına səbəb olur.

Sakinlər onu da qeyd edirlər ki, yola yığılan çirkab daha çox "120 nömrəli avtobusun axırıncı dayanacağı" kimi tanınan ərazidən başlayaraq, bir neçə nöqtədə Ceyranbatan su anbarına axıdılır. Suyun çıxdığı yerdə torpaq hissə qazılıb və axıntı minlərlə evin içməli su mənbəyi olan anbara doğru istiqamətləndirilib.

Məsələ ilə bağlı "Azərsu" Açıq Səhmdar Cəmiyyəti ilə əlaqə saxladıq.

Cəmiyyətin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı bildirdi ki, yuxarı hissələrdə çəkilən kanalizasiya xətlərinin sistemə tam qoşulması təmin olunmayıb. Ona görə orada baxış quyusunda qaynama var: "Ancaq axıntının Ceyranbatan su anbarına heç bir qarışacağı yoxdur. Həmin sahildə bir gölməçə var, bu axıntı su da ora axır".



Həmsöhbətimiz onu da əlavə etdi ki, qeyd edilən ərazidə kanalizasiya xəttinin tikintisinə Bakı Mühəndislik Universiteti tərəfdən başlayaraq, Xırdalan istiqamətində davam edilib. Yaxın vaxtlarda 2 ədəd 12 metrlik yeni kollektor çəkilib mövcud olana birləşdiriləcək ki, bununla da problem tamamilə aradan qaldırılacaq.

*Günel CƏLİLOVA*

№ 4 (4135) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

11-13 YANVAR 2020-ci il



# NASA hәyat әlamәtlәri olan yeni planet kәşf etdi

**NASA alimlәri hәyat әlamәtlәrinin olduğu yeni planet kәşf edib-lәr.**

"Milli.Az" xәbәr verir ki, yeni planet dünyadan 101,5 işıq ili uzaqlıqda yerlәşir. Yeni planetә "TOİ 700 d" adı verilib. "TOİ 700 d"nin Günәşdәn yerlәşdiyi mәsafәni nәzәrә alan alimlәr, onun sәthindә su ola bilәcәyini irәli sürürlәr. Mәlumata görә, yeni planetdә hәyatın mövcud olması üçün şәrtlәr uyğundur. Lakin "TOİ 700 d"dә canlı orqanizmlәrin olub-olmadığını müәyyәn etmәk hәlәlik mümkün olmayıb.

## İtlәrin әhvalını bildirәn xüsusi geyim...

**Yaponiyada itlәrin әhvalını bildirәn xüsusi geyim hazırlanıb. "Ted.az" bildirir ki, bu geyim nәbzi ölçәn cihazla tәchiz olunub.**

Xüsusi geyim heyvanın ürәk döyüntülәrini qeydә alan sistem, inteqrasiya olunmuş prosessordan vә müxtәlif ölçülü LED ekrandan ibarәt olan örtüklәrdәn ibarәtdir. Cihaz fizioloji parametrlәrә әsasәn itinizin emosional vәziyyәtini izlәyәrәk tәhlil edәcәk. LED işıqda әks olunan rәng yaşıldırsa, itiniz istirahәt edir, qırmızıdırsa stress, göyqurşağı rәngindәdirsә, xoşbәxtdir, demәkdir.



## Elan

Şәki rayonu, Şәki kәnd saki Tağıyev Tağı Yediyar oğlunun vә ailә üzvlәrinin adına verilmiş JN: 0073 seriyalı torpağa mülkiyyәt hüququna dair dövlәt aktı itdiyindәn etibarsız sayılır.

Әzizli Mәleykә Arzuman qızına Bakı Mühәndislik Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Abdullayev Pünhan İsrafil oğluna Milli Aviasiya Akademiyası tәrәfindәn verilmiş tәlәbә kitabçası itdiyi üçün etibarsız sayılır.

Quluzadә Sәnәm Vüqar qızına Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Hüseynzadә İntiqam Mehdi oğlunun adına, Bakı şәhәri, Nizami rayonu, 8-ci km yaşayış sahәsi, Mәmmәdәli Şәrifli küçәsi, bina 25, mәnzil 102 ünvanına verilmiş çıxarış vә texniki pasport itdiyi üçün etibarsız sayılır.

Mәmmәdli İsmayıl Nәzәr oğluna Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

## "Azercell"in dәstәyilә fәaliyyәt göstәrәn "Uşaq Qaynar Xәtt" xidmәtinә 2019-cu il әrzindә 5061 müraciәt daxil olub

**Fәaliyyәt dövrü әrzindә daim sosial layihәlәr hәyata keçirәn Azәrbaycanın lider mobil operatoru "Azercell Telekom" MMC-nin dәstәklәdiyi "Uşaq Qaynar Xәtt" xidmәti 2019-cu ilin yekunları ilә bağlı hesabatını açıqlayıb.**




Uşaqlara ilkin psixoloji yardımın, emosional dәstәyin, müxtәlif problemlәrin hәllinә dair mәslәhәtlәrin verilmәsi, ehtiyac olduğu halda müraciәt edәnlәrin reabilitasiya mәrkәzlәrinә, digәr xidmәtlәrә yönlәndirilmәsi vә tәxirәsalınmaz kömәyin göstәrilmәsi mәqsәdilә yaradılan "Uşaq Qaynar Xәtt" xidmәti 2019-cu il әrzindә 5061 zәng qәbul edib. Müraciәtlәrin 435-i psixoloji, 622-i hüquqi, 2776-ı tәhsil, 247-i sәhiyyә, 387-i sosial, 594-ü isә digәr mәsәlәlәrә aiddir. Onu da vurğulayaq ki, il boyu mәrkәzә Azәrbaycanla yanaşı, Türkiyә, Rusiya, Ukrayna, Qazaxıstan, Avstriya, Belarus, Bolqarıstan, Lüksemburq vә Özbәkistandan da zәnglәr daxil olub. Müraciәtlәr әsasәn ailә üzvlәri, müәllimlәri vә yaşıdları tәrәfindәn tәzyiqә mәruz qalan, boşanma nәticәsindә valideynlәrindәn biri ilә ünsiyyәtdәn qismәn mәhrum olan uşaqlar tәrәfindәn edilib.

Qeyd edәk ki, yeniyetmә vә azyaşlıların fiziki vә psixi sağlamlığının qorunmasına xüsusi önәm verәn "Azercell" şirkәtinin tәşәbbüsü ilә 2019-cu ildә "Uşaq Qaynar Xәtt" xidmәti üçün 116-111 qısa nömrәsi ayrılıb. Bununla da dәstәyә ehtiyacı olan gәnclәrә "qaynar xәtt"in әmәkdaşları ilә daha rahat әlaqә qurmaq imkanı tәqdim edilib. Xatırladaq ki, hәlә 2017-ci ildә "Azercell"in dәstәyi vә tәşәbbüsü ilә "Uşaq Qaynar Xәtt" xidmәtinin Android vә iOS әmәliyyat sistemlәrini dәstәklәyәn mobil tәtbiqi istifadәyә verilmәklә, xidmәtin dünyanın istәnilәn nöqtәsindә әlçatanlığı tәmin edilib.

"Uşaq Qaynar Xәtt" xidmәti Azercell Telekom-un dәstәyi, "Ümidli Gәlәcәk Sosial Tәşәbbüslәr" İctimai Birliyinin tәşkilatçılığı ilә 24/7 rejimdә çalışır. "Uşaq Qaynar Xәtt" xidmәtinә günün istәnilәn vaxtında (012) 480 22 80, (050) 680 22 80, (051) 880 11 80, (051) 880 22 80, (051) 580 22 80 vә 116-111 nömrәlәri vasitәsilә hәm şәhәrdaxili, hәm dә "Azercell" nömrәlәrindәn ödәnişsiz olaraq müraciәt etmәk mümkündür.

Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.





**Qoç** - Әsas probleminiz sanki başınıza göydәn әlәnәn mәnfi emosiyalardır. Bu zaman nәyin vacib, nәyin ikinci dәrәcәli olduğunu tәyin etmәk çәtin olur. Hәr işi atıb, bütün dünyaya küsüb oturmaq istәyirsiniz.

**Buğa** - Qeybәt vә şayiәlәrdәn uzaq olun. Sizin onları eşitmәyinizin, yaxud da yaymağınızın heç bir fәrqi yoxdur, qayda qaydadır: yoxlanmamış mәlumat hәmişә problem yaradır. Sevgililәr, әr-arvad arasında mübahisәlәr mümkündür.

**Әkizlәr** - Şәrait tәdricәn sabitlәşir. Problem vә çәtinliklәr barәdә düşünmәdәn daha xoş hadisәlәrә köklәnә bilәrsiniz. Yaradıcı potensialınız artır. İstәnilәn işin qulpundan hәvәslә yapışırsınız.

**Xәrçәng** - Sizin yaxşı keyfiyyәtlәriniz bu gün daha nәzәrәçarpandır. Parlamaq, hamının rәğbәtini qazanmaq, xoşunuza gәlәn birini әldә etmәk şansınız var. Özünüzә inam, yeni-yeni qәlәbәlәrin dadı sizi ehtiyatsızlığa sürüklәyir.

**Şir** - Uğur qazanmağınıza bircә şey mane olur - diqqәtinizi cәmlәyә, ikinci dәrәcәli mәsәlәlәrdәn qopa bilmirsiniz. Enerjiniz çoxdur, axşamadәk yorulmayacaq vә gözәl әhvalınızı qoruyub saxlaya bilәcәksiniz.

**Qız** - Gün xoş görüşlәr, maraqlı söhbәtlәr vәd edir. Gözlәnilmәdәn sizә karyerada irәlilәmәyә, yaxud maliyyә mәsәlәlәrindә uğurlar qazanmağa kömәk edәcәk insanlarla rastlaşa bilәrsiniz.

**Tәrәzi** - Çәtinliklәr çox olacaq, amma neqativ tendensiyaların tәsiri uzun sürmәyәcәk. Problemlәrin mәngәnәsindә qalanlar isә özlәri bunu seçmiş olacaqlar. Әsas odur ki, başqalarının işlәrinә qarışmayasınız.

**Әqrәb** - Әvvәllәr vәd etdiyiniz sözlәri yerinә yetirmәk üçün xeyli zәhmәt çәkmәli olacaqsınız. Hәm özünüzün, hәm başqalarının işlәrinә mәsuliyyәtlә yanaşır vә bununla әtrafınızdakıların hörmәtini qazanırsınız.

**Oxatan** - Gün xoş, maraqlı vә faydalı mәşğuliyyәtlәr üçün daha yaxşıdır. Yaradıcı potensialınız yüksәkdir, ağlınıza gәlәn ideyalar bir-birindәn parlaqdır. Hansısa yeni, gәlәcәkdә böyük gәlir vәd edәn layihәnin başlanması mümkündür.

**Oğlaq** - Gün çox gözәl başlanır. Enerjiniz aşıb-daşır, әn vacibi - özünüzün haqlı olduğunuza dair inamınız güclüdür. Hamıya, o cümlәdәn özünüzә dә sübut edәcәksiniz ki, çox şeyә qadirsiniz.

**Dolça** - İmicinizdә dәyişikliklәr etmәkdәn çәkinmәyin, fantaziyalarınız nә qәdәr cәsarәtlidirsә, xarici görünüşünüz bir o qәdәr diqqәtçәkәndir. Bu gün heç bir daxili müqavimәtlә rastlaşmadan stereotiplәrdәn yaxa qurtara bilәrsiniz.

**Balıqlar** - Necә davranmağınızdan bu gün çox şey asılıdır. Şöhrәtpәrәst vә qürurlu olsanız, munaqişәdәn qaça bilmәyәcәksiniz, vaxtında kölgәyә çәkilsәniz, güzәştә getsәniz, öz mövqeyinizi qoruyaraq rәqiblәrinizi ötә bilәrsiniz.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## İnsanlar siçanlardan niyә qorxur?



**Psixoloqlar insanların siçan vә siçovullardan niyә qorxduqlarını açıqlayıblar.**

"Milli.Az" xәbәr verir ki, mütәxәssislәrin fikrincә, gәmiricilәrdәn qorxmaq, müasir insanların әcdadlarından miras qalıb. "İnsanlar dәrin qorxulara sahibdirlәr, rasional deyillәr. Getdikcә müasirlәşәn insanların genetik yaddaşında qorxular qalıb. Ona görә dә gәmiricilәr, ilanlar, hörümçәklәrdәn qorxuruq", - deyә psixoloqlar bildiriblәr. Mütәxәssislәrin fikrincә, gәmiricilәrә qarşı fobiyaya qalib gәlmәk üçün rahatlaşıb, gәmiricilәrә tәdricәn yanaşma üsullarından istifadә etmәk lazımdır.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.